RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 71 (8950) CÜMƏ, 8 aprel 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Prosesi İLHAM ƏLİYEV idarə edir



## Avropa İttifaqının dəstəyi ilə Brüsseldə keçirilən sülh danışıqlarının növbəti mərhələsində mühüm irəliləyiş əldə edilib

**Prezident İlham Əliyevin Brüsselə səfəri, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Ermənistan baş naziri Nikol Paşinyanla görüşləri və əldə olunmuş nəticələr qalib komandanın dünyada böyük nüfuzunun göstəricisi, Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin növbəti böyük uğuru oldu. Belə ki, Brüsseldə Avropa İttifaqı Şurasının prezidentinin iştirakı ilə keçirilən sülh danışıqlarının növbəti mərhələsi nəticəsiz olmadı.**

### İkinci görüş, İlham Əliyevin dəyişməyən 5 şərti

Öncə onu qeyd edək ki, bu formatda ilk üçtərəfli görüş ötən il dekabrın 14-də keçirilib və nəticə etibarilə Prezident İlham Əliyevlə Şarl Mişel tərəfindən Brüssel sülh gündəliyinin əsası qoyulub. Bunun davamı olaraq tərəflər arasında intensiv təmaslar qurulub, telefon danışıqları olub.

Ümumiyyətlə, bu görüşlər və danışıqlar İlham Əliyevin postmünaqişə dövründə Brüssel sülh gündəliyinin tərkib hissəsidir. Görüşdən əvvəl də qeyd edilirdi ki, tərəflər arasında bir çox məsələdə ümumi razılıq əldə oluna bilər. Amma bir məsələ hər kəsə bəlli idi ki, İkinci Qarabağ müharibəsinin qalib ölkəsi kimi Azərbaycan sülh danışıqlarına başlanılması və sazişin bağlanması istiqamətində vacib 5 şərtini artıq Ermənistana çatdırıb.

Şərtlərə bir daha nəzər yetirək:

- Dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;
- Dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;
- Dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;
- Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;
- Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

Ardı 2-ci səh.

## Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla ikinci üçtərəfli görüşdən sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bəyanatı

Aprelin 6-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilmiş üçtərəfli görüşün nəticəsinə dair bəyanat verib.

AZƏRTAC xəbər verir ki, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Cənubi Qafqaz regionunda vəziyyətə dair müzakirələrin davam etdirilməsi və Avropa İttifaqının hər iki ölkə ilə münasibətlərinin inkişafı üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanı qəbul etdi.

Prezident Mişel gərginliklərin aradan qaldırılmasında yaxından çalışmağın, Ermənistan və Azərbaycanla əməkdaşlığın dərinləşdirilməsi və regionda yaşayan bütün xalqların faydası naminə təhlükəsiz, sabit, dinc və firavan Cənubi Qafqazın təşviq edilməsinə Avropa İttifaqının sadiq olduğunu bildirdi.

Ardı 2-ci səh.

## Korrupsiyaya qarşı mübarizə yeni mərhələyə qədəm qoyub

### Milli Fəaliyyət Planı üzrə tədbirlər planının təsdiq edilməsi bunun göstəricisidir

Korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətidir. Son illərdə bu sahədə şəffaflığın gücləndirilməsi, maarifləndirmə istiqamətində ciddi addımların atılması uğurlu nəticələr verir.

Aprelin 4-də Prezident İlham Əliyevin "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə tədbirlər planını təsdiqləməsi də bunun tərkib hissəsidir.

Tədbirlər planında korrupsiyaya qarşı mübarizə üzrə qanunvericiliyin təkmilləşdirilməsi, bu sahədə şəffaflığın gücləndirilməsi, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, dövlət xidmətlərinin və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq, korrupsiyaya qarşı mübarizədə maarifləndirmə və digər tədbirlər yer alıb. Tədbirlər planından irəli gələn məsələlərin icrası müxtəlif qurumlara həvalə olunub.

### Korrupsiyaya qarşı mübarizə üzrə 6 prioritet, 70-ə yaxın mühüm vəzifə müəyyənləşdirilib

Prezident İlham Əliyevin dövlət siyasətinin prioritet istiqamətlərindən biri də ölkədə korrupsiyaya qarşı sistemli mübarizənin aparılmasıdır.

Ardı 4-cü səh.

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğanla Brüsseldə keçirilmiş üçtərəfli görüşü müzakirə etdi

**Aprelin 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

**Telefon danışığı əsnasında aprelin 6-da Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə Avropa İttifaqı, Azərbaycan və Ermənistan arasında Brüsseldə keçirilmiş üçtərəfli görüş haqda söhbət aparıldı.**

**Prezident İlham Əliyev görüşün nəticələrini müsbət qiymətləndirdiyini bildirdi.**

**Dövlətimizin başçısı Azərbaycanın təqdim etdiyi baza prinsipləri, o cümlədən ərazi bütövlüyünün qarşılıqlı tanınması və ərazi iddialarından imtina edilməsi daxil olmaq şərti ilə sülh müqaviləsinin hazırlanması üzrə Ermənistan və Azərbaycan arasında işçi qrupunun yaradılması, həmçinin sərhədlərin delimitasiyası üzrə komissiyanın təsis edilməsi barədə əldə olunmuş qərarları qeyd etdi.**

**Prezident Rəcəb Tayyib Ərdoğan da öz növbəsində əldə olunmuş nəticələrdən məmnunluğunu ifadə etdi.**

**Söhbət zamanı Ermənistan-Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasının, nəqliyyat-kommunikasiya xətlərinin qurulmasının regionda davamlı sülhün və sabitliyin təmin olunmasına, region ölkələrinin inkişafına və firavanlığına xidmət edəcəyi vurğulandı.**

**Dövlət başçıları həmçinin Azərbaycan və Türkiyə arasında ikitərəfli müttəfiqlik əlaqələrinin müxtəlif aspektlərinə dair fikir mübadiləsi apardılar.**

*Prezidentin Mətbuat Xidməti*



## TAP
## Kəmərin genişləndirilməsi gününün müzakirə mövzusudur

Bax: səh. 5

## AĞDABAN-
### intiqamı alınan faciə

Bax: səh. 7

## Ermənistan hərbçisi güllə satır

Maddi durumu getdikcə ağırlaşan əsgərlər ordudan oğurluq etməyə başlayıblar

Bax: səh. 8

## İndi fransız gənclərini seçki maraqlandırmır

Bu ölkənin avanqard qüvvəsi siyasətçilərin vədlərinə inanmır

Bax: səh. 8

# Prosesi İLHAM ƏLİYEV idarə edir

## Avropa İttifaqının dəstəyi ilə Brüsseldə keçirilən sülh danışıqlarının növbəti mərhələsində mühüm irəliləyiş əldə edilib



*Əvvəli 1-ci səh.*

İlham Əliyev qalib komandan kimi yalnız bu şərtlərin yerinə yetiriləcəyi təqdirdə məğlub ölkənin rəhbəri ilə sülh müqaviləsini imzalaya bilər. Yəni Azərbaycan Prezidentinin təklifinə əməl olunarsa, iki dövlət məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişini yekunlaşdıra bilər.

### Şarl Mişeldən müjdəli xəbər - “böyük irəliləyişə nail olundu”

Aprelin 6-da 4 saat yarımdan artıq davam edən görüşün nəticəsi olaraq Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqların başlanması və bununla bağlı işçi qrupun yaradılması qərara alındı. Məsələ ilə əlaqədar Azərbaycan və Ermənistan XİN-lərinə müvafiq təlimatlar verildi.

Ümumiyyətlə, sülh razılaşmasının əsas komponenti Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklif və bunun əsasında predmetli danışıqların aparılmasıdır. Bu sənəddə əsas məqam Azərbaycanın ərazi bütövlüyü ilə bağlıdır.

Danışıqlar zamanı tərəflərin sərhəd məsələləri üzrə birgə komissiya yaratması, birinci növbədə sərhədlərin delimitasiya prosesinə başlanılması barədə razılıq əldə olunub. Bunun nəticəsi olaraq sərhəddə gərginlik aradan qaldırılacaqdır.

Nəqliyyat-kommunikasiya xətlərinin bərpası və yaradılması, dəmir yolu və avtomobil yolunun çəkilməsi, İqtisadi Məşvərət Şurası mexanizminin yaradılması qərara alınıb.

Avropa İttifaqının minalardan təmizlənmə, itkin düşmüş şəxslərin tapılması, eləcə də quruculuq işlərində Azərbaycana dəstək göstərməsi də danışıqların mövzusu olub.

Göründüyü kimi, sənəddə “Dağlıq Qarabağ” ifadəsi və ya keçmişin qalığı olan ATƏT MQ həmsədrlik institutuna istinad yoxdur. Bu, göstərir ki, Avropa İttifaqı 44 günlük müharibədən sonra yaranmış yeni geosiyasi reallığı qəbul edir və öz mövqeyində bu reallığa əsaslanır. Həmçinin münaqişə həll olunduğuna görə ATƏT MQ lazımsız təsisata çevrilib, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranıb.

Avropa İttifaqı dünyada mövcud olan böyük siyasi və iqtisadi mərkəzlərdən biridir, qərəzsiz və bitərəfdir, Azərbaycan və Ermənistan ona etimad göstərirlər. Aİ-nin məqsədi ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasına nail olunmasıdır.

Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf Avropa İttifaqı üçün də olduqca mühümdür. Ona görə də Aİ bu məsələdə qərəzsiz tərəf kimi çıxış edir. Bu səbəbdən də tərəflər arasında sülh danışıqlarının uğurlu sonluğunu gözləyənlər çoxluq təşkil edir.

Görüşdən sonra açıqlama verən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin fikirləri də onu deməyə əsas verir ki, tərəflər artıq müxtəlif məsələlərdə ümumi razılığa gələ biliblər. İlham Əliyev və Nikol Paşinyanla çox səmərəli görüşün keçirildiyini deyən Şarl Mişel böyük bir irəliləyişə nail olunduğunu vurğulayıb: “Biz hamımız birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar vermişik. Biz həmçinin həssas məsələ olan delimitasiya ilə bağlı işçi qrupu, birgə komissiya ilə bağlı razılığa gəldik. Əminəm ki, növbəti həftələrdə əldə olunacaq tərəqqini nəzərdən keçirmək üçün bizim aramızda güclü kommunikasiya və koordinasiya olacaq”.

Sülh sazişinin imzalanması məsələsinə gəlincə isə Aİ rəsmisi deyib ki, ikinci üçtərəfli görüş ümidləri xeyli artırıb. Proses demək olar həmin gecədən başlayıb. Yəni Şarl Mişel tərəfindən verilmiş bəyanatda təsbit edilir ki, Ermənistan Azərbaycanın irəli sürdüyü 5 təkliflə razılaşmaq məburiyyətindədir.

Bir sözlə, onu deyə bilərik ki, Avropa İttifaqının dəstəyi ilə Ermənistan və Azərbaycan arasında birbaşa danışıqları nəzərdə tutan yeni mexanizm və format yaranır. Bunun da məqsədi ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, Cənubi Qafqazda sülhün bərqərar olmasıdır.

Avropa İttifaqı İlham Əliyevin regional liderliyini qəbul edir, Azərbaycan Prezidenti ilə yaxın təmasları Cənubi Qafqaz regionunda sülh və sabitliyin bərqərar olmasında mühüm amil kimi görür. Son iki ayda Azərbaycan Prezidenti ilə dünya liderləri, dövlət və hökumət başçıları arasında dialoq, telefon danışıqları, cənab İlham Əliyevə ünvanlanmış məktublar dövlətimizin başçısının dünyada böyük nüfuzunun göstəricisidir.

Hazırda Ermənistanda gedən müzakirələr də onu göstərir ki, Azərbaycan Prezidentinin siyasi-diplomatik səyləri böyük səmərə verir, Ermənistanın müxtəlif iddialarla prosesi ləngitmək cəhdləri iflasa məhkumdur.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Xarici media Prezident İlham Əliyevin Brüssel səfərini geniş işıqlandırıb




Aprelin 6-da Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan baş naziri Nikol Paşinyanla işçi nahar formatında görüşü Türkiyənin aparıcı kütləvi informasiya vasitələri (KİV) tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, “Anadolu” agentliyi, “TGRT Haber”, “TRT Haber”, “Haber Global” telekanalları, “Yeni şafak”, “Akşam” qəzetləri və sair media qurumları səfərin mahiyyəti barədə Türkiyə ictimaiyyətini ətraflı məlumatlandırıb.

Azərbaycanın Xarici İşlər Nazirliyinin və Avropa İttifaqının sözügedən görüş barədə açıqlamaları məlumatlarda əksini tapıb. Diqqətə çatdırılır ki, Azərbaycan XİN açıqlamasında bildirib ki, Brüssel görüşü Azərbaycanın maraqlarına uyğun olaraq və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin edilməsi istiqamətində atılmış növbəti önəmli addımdır.

* * *




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəvəti ilə Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfəri və keçirdiyi görüşlər Gürcüstan mətbuatının diqqət mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, “kavkasia.net (Kavkaz Online)”, “24news.ge”, “interpress.ge”, “aktual.ge” informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, eləcə də Ermənistanın baş naziri Nikol Paşinyanla görüşləri barədə məlumatlar yayıblar.

Azərbaycan, rus, ingilis və gürcü dillərində dərc olunan materiallarda görüşlərin məzmunu və nəticələri barədə oxuculara məlumat çatdırılıb.

* * *




Ukrayna KİV Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla görüşünə və onun nəticələrinə geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, Ukraynanın “İnterfax”, “RBK” informasiya agentlikləri, “Korrespondent.net” xəbər portalı və digər saytlarda yayımlanmış məqalələrdə Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan tərəfindən ölkələr arasında sülh sazişinə doğru sürətli irəliləmək arzularının ifadə edilməsi qeyd olunub. Bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılığın əldə olunması vurğulanıb.

Hər iki ölkə arasında sərhədin delimitasiyası və demarkasiyası zəruri olacaqdır. Bu məqsədlə 2021-ci il 26 noyabr tarixli Soçi bəyanatına müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi ilə bağlı razılıq əldə olunub. Birgə Sərhəd Komissiyasının mandatına Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası, sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi daxil edilib.

# Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla ikinci üçtərəfli görüşdən sonra Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bəyanatı

*Əvvəli 1-ci səh.*

Liderlər 2021-ci ilin dekabr ayında Brüsseldə keçirilmiş son görüşdən və 2022-ci ilin fevral ayında Prezident Makronun iştirakı ilə videokonfransdan sonra hadisələrin inkişafını və tərəflərin üzərinə götürdüyü öhdəliklərin icrası ilə bağlı irəliləyişi nəzərdən keçirdilər. Onlar bu yaxınlarda baş vermiş gərginlikləri müzakirə etdilər və 2020-ci il 9/10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına tam riayət edilməsinin zərurətini qeyd etdilər. Onlar Ermənistanın və Azərbaycanın yüksəksəviyyəli nümayəndələrinin Brüsseldə Avropa İttifaqının himayəsi altında 2022-ci il martın 30-da keçirilmiş görüşünü alqışladılar və liderlər səviyyəsində əldə olunmuş razılıqların müvafiq şəkildə inkişaf etdirilməsi ilə bağlı bu fəaliyyətin davam etdirilməsinin zərurətinə dair razılığa gəldilər.

Prezident Mişel etimadı və dinc birgə yaşayışı təşviq etmək məqsədilə hər iki tərəfdən humanitar jestlərin əhəmiyyətini vurğuladı. O, həll olunmamış bütün humanitar məsələlərin tam və çevik həllinə ehtiyacın olduğunu, o cümlədən hələ də saxlanılmaqda olan şəxslərin azad edilməsi və itkin düşmüş şəxslərlə bağlı məsələnin hərtərəfli həllini vurğuladı və Avropa İttifaqının bu işə dəstək olmağa hazır olduğunu bildirdi. Avropa İttifaqı öz növbəsində Azərbaycan və Ermənistan arasında etimadın qurulması tədbirlərinə və humanitar məqsədli minatəmizləmə səylərinə, o cümlədən ekspert məsləhətini təmin etməyə davam etməklə münaqişədən əziyyət çəkən əhaliyə maliyyə yardımının artırılması, bərpa və yenidənqurma işlərinə dəstək olacaqdır.

Prezident Mişel həm Prezident Əliyev, həm də baş nazir Paşinyan tərəfindən ölkələr arasında sülh sazişinə doğru sürətli irəliləmək arzularının ifadə edilməsini qeyd etdi. Bu məqsədlə bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılıq əldə olundu.

Hər iki ölkə arasında sərhədin delimitasiyası və demarkasiyası zəruri olacaqdır. Bu məqsədlə 2021-ci il 26 noyabr tarixli Soçi bəyanatına müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi ilə bağlı razılıq əldə olundu. Birgə Sərhəd Komissiyasının mandatına aşağıdakılar daxil olacaqdır:

1. Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası.
2. Sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi.

Prezident Mişel həmçinin qeyd etdi ki, qüvvələrin müvafiq məsafədə olmasının təmin edilməsi insident və gərginliklərin azaldılmasının əhəmiyyətli elementidir. Prezident Mişel Avropa İttifaqının məsləhət və dəstək təmin etməyə hazır olduğunu bir daha bildirdi.

Liderlər həmçinin xüsusilə Ermənistan və Azərbaycan arasında və daha geniş mənada Cənubi Qafqazda kommunikasiya/bağlılıq infrastrukturunun bərpasını da müzakirə etdilər. Prezident Mişel dəmir yollarının bərpası istiqamətində atılmış addımları alqışladı, eyni zamanda Ermənistanı və Azərbaycanı yol əlaqələrinin bərpası üçün effektiv üsullar tapmağa dəvət etdi. Avropa İttifaqı bağlılıq əlaqələrinin inkişafını dəstəkləməyə, o cümlədən iqtisadi və investisiya planına uyğun olaraq və ümumi layihələri müəyyən etmək üçün təklif olunmuş iqtisadi məşvərət forumundan da istifadə etməyə hazırdır.

Liderlər görüşlərin nəticələrinə dair işi davam etdirmək və prosesə sadiq qalmaqla bağlı razılıqlarını bildirdilər.

# Xarici İşlər Nazirliyi: “Brüssel görüşü bölgənin gələcək sülh və əmin-amanlığı üçün növbəti önəmli addımdır”

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə baş tutan görüşünə dair məlumat yayıb.

Bu barədə AZƏRTAC-a XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məlumatda deyilir: “Tərəflərin hələ 2021-ci ilin 15 dekabr tarixində baş tutan birgə görüşünün davamı olaraq keçirilən bu görüş bölgədəki vəziyyətin müzakirəsi, o cümlədən bölgənin təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərinin müzakirəsinə həsr olunub.

Görüş zamanı postmünaqişə mərhələsində bölgənin inkişafı ilə bağlı Azərbaycanın hər zaman çıxış etdiyi prinsiplər, o cümlədən 2020-ci ilin 9/10 noyabr üçtərəfli Bəyanatının müddəalarına tam riayət olunması, tərəflər arasında sülh və etimadın təşviq olunması üçün humanitar addımların davam etdirilməsi, iki dövlətin sərhədinin delimitasiya və demarkasiyası üçün konkret addımların atılması və nəqliyyat və kommunikasiyaların açılması məsələləri geniş müzakirə edilib. Görüş nəticəsində Aİ Şurasının prezidenti bəyanatla çıxış edib.

Görüş zamanı humanitar tədbirlərin tərəflər arasında sülh və etimadın təşviq olunması baxımından əhəmiyyəti, o cümlədən itkin düşmüş şəxslərlə bağlı məsələlər, minaların təmizlənməsinin vacibliyi vurğulanaraq, Aİ-nin bölgədə aparılan humanitar minatəmizləmə, eləcə də reabilitasiya və rekonstruksiya işlərinə dəstək verəcəyi qeyd olunub.

Hələ bir il bundan öncə Azərbaycan tərəfindən irəli sürülən təşəbbüs və bir müddət öncə tərəfimizdən təqdim edilən baza prinsipləri əsasında iki ölkə arasında sülh sazişinin hazırlanmasına başlanılması ilə bağlı hər iki ölkənin xarici işlər nazirlərinə təlimat verilib.

İki dövlət arasında sərhədin delimitasiya və demarkasiyasının vacibliyi ifadə edilib və bu xüsusda cari il aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının təşkil edilməsi razılaşdırılıb.

Həmçinin iki ölkə arasında nəqliyyat və kommunikasiyaların, o cümlədən həm dəmir yolları, həm də avtomobil yollarının açılmasının əhəmiyyəti qeyd edilib. Aİ-nin nəqliyyat bağlantı infrastrukturunun inkişafını dəstəkləməyə hazır olduğu bir daha bəyan edilib.

Beləliklə də, Aİ Şurasının prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşü Azərbaycanın maraqlarına uyğun olaraq və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin olunması istiqamətində atılmış növbəti önəmli addımdır”.

# Azərbaycan Respublikasının ərazisində baş vermiş təbii fəlakətlərin, texnogen qəzaların və hərbi əməliyyatların nəticələrinin aradan qaldırılması ilə əlaqədar dövlət vəsaiti hesabına inşa edilmiş yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının mənzilləri üzərində hüquqların rəsmiləşdirilməsi, habelə onların yerləşdiyi torpaq sahələri ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yerli icra hakimiyyəti orqanları:

1.1. müvafiq inzibati ərazi vahidlərinin ərazisində baş vermiş təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına inşa edilmiş və bu Fərman qüvvəyə mindiyi günədək tikinti-quraşdırma işləri başa çatmış və ya tikinti işlərinə başlanılmış yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının mənzillərinin təqdim edildiyi şəxslərin siyahısını (hər bir şəxsə təhvil verilən yaşayış evi və (və ya) mənzil dəqiq göstərilməklə), yaşayış evlərinə münasibətdə tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinin surətini, istismarına icazə verilmiş çoxmənzilli yaşayış binalarına münasibətdə isə həmin binanın tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsinin və istismarına icazə sənədinin surətini iki ay müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə təqdim etsinlər;

1.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsinlər.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş siyahıda adları qeyd olunan şəxslərin müraciətləri əsasında yaşayış sahələri, habelə yaşayış evlərinin həyətyanı torpaq sahələri üzərində onların mülkiyyət hüquqlarının "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasını təmin etsin;

2.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş siyahıda adları qeyd olunan şəxslərin müraciətlərinə baxılarkən:

2.2.1. yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının inşa edildiyi torpaq sahələri bələdiyyə mülkiyyətində olduğu hallarda həmin torpaq sahələrinin döngə nöqtələrinin koordinatları və ölçüsü barədə məlumatları belə halın aşkar edildiyi tarixdən bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.2.2. yaşayış evləri və çoxmənzilli yaşayış binaları bu məqsəd üçün nəzərdə tutulmayan torpaq sahəsində inşa edildiyi hallarda həmin torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırılmasını təmin etsin;

2.3. bu Fərmanın 2.1-ci və 2.2-ci bəndlərinin icrası ilə bağlı görülən işlər barədə hər yarımildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin bu Fərmanın 2.2-ci bəndinə uyğun olaraq təqdim etdiyi məlumatlar əsasında:

3.1.1. yaşayış evləri və çoxmənzilli yaşayış binaları bələdiyyə mülkiyyətində olan torpaq sahələrində inşa edildiyi hallarda bələdiyyəyə mütənasib dəyərdə dövlət mülkiyyətindən torpaq sahələrinin ayrılmasını təmin etsin;

3.1.2. bu Fərmanın 2.2.2-ci yarımbəndində göstərilən hallarda, habelə zərurət olduğu hallarda bu Fərmanın 3.1.1-ci yarımbəndinə əsasən bələdiyyə mülkiyyətinə ayrılan torpaq sahələrinin kateqoriyasının dəyişdirilərək yaşayış məntəqələrinin torpaqları kateqoriyasına aid edilməsini təmin etsin;

3.1.3. yaşayış evlərinin yerləşdiyi torpaq sahələri üzərində vətəndaşların mülkiyyət hüququnun rəsmiləşdirilməsi üçün tədbirlər görsün və bu barədə hər yarımildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi ilə bağlı torpaq sahələrinin ayrılması, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı, habelə şəhərsalma və tikinti prosedurlarının sadələşdirilməsi məqsədilə bu sahədə münasibətləri tənzimləyən normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2022-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132; 2016, № 8, maddə 1384, № 10, maddə 1633; 2017, № 4, maddə 565, № 11, maddə 1997; 2019, № 2, maddələr 247, 249, № 3, maddə 415, № 4, maddə 621, № 6, maddə 1032; 2020, № 3, maddə 243, № 6, maddə 706; 2021, № 5, maddə 450) ilə təsdiq edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı"nın 1.7-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.8-ci bənd əlavə edilsin:

"1.8. kənd təsərrüfatı bitkilərinin toxum və əkin materialları, habelə seleksiya nailiyyətləri ilə bağlı "Toxumçuluq haqqında", "Çayçılıq haqqında", "Seleksiya nailiyyətləri haqqında" Azərbaycan Respublikasının qanunları və bu sahədə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş müvafiq tələblərə riayət olunmasının Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən yoxlanılması.".

*İlham ƏLİYEV,*
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2022-ci il*

# "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 139-1.1.8-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 13 yanvar tarixli 439 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 15, № 10, maddə 1136; 2016, № 7, maddə 1255; 2017, № 2, maddə 180) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4-cü hissədə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

1.2. 5-ci hissədə "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin;

1.3. həmin Fərmanla təsdiq edilmiş "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı" üzrə:

1.3.1. 1.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.4. rayon, şəhər, qəsəbə və kənd zəhmətkeş deputatları sovetləri və xalq deputatları sovetləri tərəfindən torpaq sahələrinin ayrılması barədə qəbul edilmiş qərarlar;";

1.3.2. 2.2-ci bənddə "şəhər və rayon" sözləri "rayon, şəhər, qəsəbə və kənd" sözləri ilə əvəz edilsin;

1.3.3. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.3. kənd və qəsəbə yaşayış məntəqələrində (o cümlədən statusu dəyişdirilərək şəhərə (qəsəbəyə) çevrilmiş, habelə ləğv edilərək ərazisi şəhər və ya qəsəbələrin ərazisinə verilmiş kəndlərdə) 2001-ci il yanvarın 1-dək inşa edilmiş yaşayış evlərinə və (və ya) onların yerləşdiyi torpaq sahələrinə, eləcə də yaşayış evlərinin tikintisi üçün ayrılmış torpaq sahələrinə dair təsərrüfatbaşına kitablardan çıxarış;";

1.3.4. 2.5-ci bənddə "Yaşayış" sözü "yaşayış" sözü ilə əvəz olunsun, həmin bənddən "yaxud" sözü çıxarılsın və həmin bəndə "əmri" sözündən sonra ", yaxud həyətyanı torpaq sahəsi barədə qaytanlanmış torpaq kitablarından (o cümlədən kolxoz və sovxoz torpaqlarına dair qaytanlanmış kitablardan) çıxarış" sözləri əlavə edilsin;

1.3.5. 2.6-cı bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.7-ci bənd əlavə edilsin:

"2.7. yerli icra hakimiyyəti başçısının qərarı əsasında yaşayış evinin tikintisi məqsədilə torpaq sahələrinin ayrılması barədə, yaxud müvafiq torpaq sahəsinin yerli icra hakimiyyəti başçısının qərarında nəzərdə tutulan şəxslər arasında bölüşdürülməsi barədə aidiyyəti inzibati ərazi dairəsi üzrə nümayəndə tərəfindən 2001-ci il yanvarın 1-dək verilmiş qərar.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Yerli icra hakimiyyəti orqanları üç ay müddətində:

3.1. yerli icra hakimiyyəti başçısının qərarı əsasında yaşayış evinin tikintisi məqsədilə torpaq sahələrinin ayrılması barədə, yaxud müvafiq torpaq sahəsinin yerli icra hakimiyyəti başçısının qərarında nəzərdə tutulan şəxslər arasında bölüşdürülməsi barədə aidiyyəti inzibati ərazi dairəsi üzrə nümayəndə tərəfindən 2001-ci il yanvarın 1-dək verilmiş qərarlarla bağlı məlumatların (yerli icra hakimiyyəti başçısının və inzibati ərazi dairəsi üzrə nümayəndənin müvafiq qərarlarının surətləri, torpaq sahəsinin ayrıldığı şəxsin adı, soyadı, atasının adı, torpaq sahəsinin ölçüsü və ünvanı göstərilməklə) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim olunmasını təmin etsinlər;

3.2. müvafiq dövlət arxivinə təhvil verilməmiş qaytanlanmış torpaq kitablarının (o cümlədən kolxoz və sovxozun qaytanlanmış torpaq kitablarının) Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin tabeliyindəki dövlət arxivlərinə təhvil verilməsini təmin etsinlər.

4. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi:

4.1. bu Fərman qüvvəyə mindiyi günədək, habelə bu Fərmanın 3.2-ci bəndinə uyğun olaraq yerli icra hakimiyyəti orqanları tərəfindən müvafiq dövlət arxivlərinə təhvil verilmiş qaytanlanmış torpaq kitablarının (o cümlədən kolxoz və sovxozun qaytanlanmış torpaq kitablarının) elektron məlumat bazasının yaradılmasını və həmin bazaya Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin çıxışına imkan yaradılmasını altı ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Fərmanın 4.1-ci bəndi icra olunanadək qaytanlanmış torpaq kitablarından çıxarışların sorğu əsasında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə kağız daşıyıcıda təqdim olunmasını təmin etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı ilə bağlı bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

*İlham ƏLİYEV,*
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 aprel 2022-ci il*

# Müdafiə naziri yeni hərbi infrastrukturlara baxış keçirib









Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir standartlara cavab verən hərbi infrastrukturun yaradılması və bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Quru Qoşunlarının Ümumqoşun Təlim Mərkəzində yeni inşa edilmiş inzibati binada yaradılan şərait, həmçinin təlim sahəsində görülən işlərlə tanış olub. Məruzə olunub ki, müxtəlif qoşun növləri bölmələrinin təyinatı nəzərə alınmaqla real döyüş şəraitinə uyğunlaşdırılan mərkəzdə təlimlərə cəlb ediləcək hərbi qulluqçuların döyüş hazırlığının və taktiki-xüsusi bacarıqlarının inkişaf etdirilməsi məqsədilə lazımi infrastruktur yaradılıb.

Sonra nazirliyin rəhbər heyəti Kəlbəcər rayonunda yerləşən hərbi hissədə yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, hərbi hissədə şəxsi heyətin nümunəvi xidmət etməsi üçün mebellərlə təchiz edilmiş yataqxana və xidməti otaqlar, hamam-sanitar qovşağı, qurutma otağı, tibb məntəqəsi, ehtiyat qidaların saxlanması üçün ərzaq anbarı, yeməkxana və mətbəx avadanlığı mövcuddur. Binada mərkəzləşdirilmiş istilik sistemi, işıq, su və dayanıqlı rabitə, həmçinin ərazinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məqsədilə generatorlar vardır.

Daha sonra general-polkovnik Z.Həsənov hərbi hissənin təlim mərkəzində hərbi qulluqçuların nümunəvi çıxışlarını izləyib. Qeyd edilib ki, burada hərbi qulluqçulara atəş və dağ hazırlığı, eləcə də müxtəlif maneələrdən keçid və digər fəaliyyətlərin aparılması öyrədilir.

Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını müsbət qiymətləndirən nazir onların qayğıları ilə maraqlanıb, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları diqqətə çatdırıb.

Sonda müdafiə naziri hərbi qulluqçuların döyüş hazırlığının və peşəkarlıq səviyyələrinin daim yüksək səviyyədə saxlanılması ilə bağlı aidiyyəti üzrə vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

# "Efes-2022" təlimdə iştirak edəcək heyətin hazırlığı yoxlanılıb





Müdafiə nazirinin tapşırığına əsasən Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov "Efes-2022" çoxmillətli təlimində iştirak edəcək hərbi qulluqçularım təminat və təchizatı, eləcə də şəxsi heyətin hazırlıq səviyyəsini yoxlayıb.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kontr-admiral S.Bəkirov, həmçinin ölkəmizi təlimdə təmsil edəcək heyətlə görüşərək onlara uğurlar arzulayıb.

Qeyd edək ki, "Efes-2022" çoxmillətli təlimin bu ilin may-iyun aylarında Türkiyə Respublikasının İzmir şəhərində keçirilməsi planlaşdırılır.

# Azərbaycan Ordusunun Tovuz rayonu istiqamətində mövqeləri atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri aprelin 6-sı axşam saatlarında dövlət sərhədinin Tovuzqala rayonunun Müsürskənd yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Maliyyə Nazirliyində fransalı sahibkarlarla görüş keçirilib

Aprelin 7-də maliyyə naziri, Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Samir Şərifov ölkəmizdə səfərdə olan Fransa Sahibkarlar Təşkilatı - "MEDEF International"ın direktoru Filip Qotyenin rəhbərlik etdiyi və müxtəlif sahələrdə fəaliyyət göstərən Fransanın 15-dən artıq şirkətinin təmsil olunduğu nümayəndə heyəti ilə görüşüb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, fransalı sahibkarları salamlayan S.Şərifov iki illik fasilədən sonra "MEDEF International"ın böyük nümayəndə heyətinin Azərbaycana yenidən səfərinin ikitərəfli ticari-iqtisadi əlaqələri intensivləşdirmək və şaxələndirmək baxımından mühüm əhəmiyyət daşıdığını ifadə edib.

Ölkəmizdə fəaliyyət göstərən bir çox xarici şirkətlər kimi Fransa şirkətlərinin də Azərbaycanın iqtisadi potensialı və sahibkarlar üçün yaradılmış əlverişli biznes mühitindən faydalanaraq uğurla fəaliyyət göstərdiklərini qeyd edən nazir vurğulayıb ki, fransalı sahibkarlar ölkəmizdə yaradılan sənaye zonalarında və aqroparklarda, eləcə də regionun investisiya üçün əlverişli biznes məkanı olan Ələt Azad İqtisadi Zonasında fəaliyyət göstərməklə daha böyük iş imkanları qazanaraq region ölkələrinə məhsul və xidmət satışını genişləndirə bilərlər.

Samir Şərifov Prezident İlham Əliyevin rəhbərliyi ilə hökumət tərəfindən həyata keçirilən tədbirlər, 2021-ci ilin iqtisadi-maliyyə yekunları, işğaldan azad edilmiş ərazilərin bərpa və yenidənqurulması ilə bağlı görülən işlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, COVID-19 pandemiyasının bir çox dünya ölkələrinə olduğu kimi Azərbaycana da mənfi təsirlərinə baxmayaraq, 2021-ci ildə iqtisadiyyatın bütün sahələrində sürətli bərpaya nail olunub, nəticədə ötən il ÜDM-nin artım tempi proqnozlaşdırılan 3,4 faizdən xeyli dərəcədə çox - 5,6 faiz, qeyri-neft ÜDM-nin artım tempi isə 7,2 faiz təşkil edib, ölkənin dövlət borcu azalıb, dövlət büdcəsi kəsiri əhəmiyyətli dərəcədə daralıb, valyuta ehtiyatları isə artıb.

2020-ci ildə Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfərlə öz ərazi bütövlüyünü bərpa etdiyini bildirən nazir hazırda işğaldan azad olunan ərazilərin minalardan təmizlənməsi, tamamilə dağıdılmış şəhər və kəndlərin, infrastrukturun yenidən qurulmasının, didərgin salınmış soydaşlarımızın öz doğma torpaqlarına Böyük Qayıdışının təmin edilməsinin hökumət qarşısında əsas çağırış olduğunu diqqətə çatdırıb, bu işlərin görülməsi üçün ardıcıl olaraq iki il ərzində dövlət büdcəsindən məqsədli vəsaitlərin ayrıldığını qeyd edib.

Nümayəndə heyətinin rəhbəri Filip Qotye Azərbaycanda yaradılan əlverişli biznes və investisiya mühitinin Fransa şirkətləri üçün geniş imkanlar açdığını vurğulayaraq ikitərəfli əməkdaşlığın inkişafı istiqamətində fikirlərini bölüşüb. O bildirib ki, rəqəmsal biznes, bərpaolunan enerji, şəhər infrastrukturu və xidmətləri, "ağıllı şəhərlər", həmçinin kənd təsərrüfatı və ərzaq kimi sahələrdə qabaqcıl bilik və texnologiyalara malik 7100-ə yaxın fransız şirkətinin təmsil olunduğu "MEDEF International"ın ölkəmizə budəfəki səfərinin məqsədi Azərbaycan iqtisadiyyatının postpandemiya dövründə şaxələndirilməsi, habelə işğaldan azad edilmiş ərazilərin inkişafı və yenidən qurulması üzrə hökumətin müəyyənləşdirdiyi son prioritetlərlə yaxından tanış olmaqdır.

Daha sonra görüşdə iştirak edən fransız şirkətlərinin nümayəndələrini maraqlandıran suallar cavablandırılıb, qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə Fransanın Azərbaycandakı səfiri Zakari Gros da iştirak edib.

# Vətən müharibəsinin daha 61 iştirakçısı polis orqanlarında xidmətə qəbul olundu

Aprelin 7-də Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb.

Sıra baxışında kütləvi informasiya vasitələrində, o cümlədən Daxili İşlər Nazirliyinin rəsmi saytında və sosial şəbəkələrdəki səhifələrində verilmiş elana uyğun olaraq nazirliyə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 277 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 61 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ölkəmizin hərtərəfli inkişafında, həmçinin Vətən müharibəsində gənclərimizin böyük rolu olduğunu, ölkəmizin ümumi inkişafına töhfə verdiklərini vurğulayıb. O, daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə fəaliyyətlərində uğurlar arzulayıb və tövsiyələrini verib.

# Heydər Əliyev adına Müasir Təhsil Kompleksi Qarabağ Dirçəliş Fonduna 600 ağac ianə edib

Heydər Əliyev adına Müasir Təhsil Kompleksi (MTK) işğaldan azad edilən ərazilərdə erməni terroru nəticəsində vurulan zərərin aradan qaldırılması, biomüxtəlifliyin bərpası, o cümlədən təhsil müəssisələri arasında ianə mədəniyyətini təbliğ etmək məqsədilə xeyriyyə konserti təşkil edib.

Qarabağ Dirçəliş Fondundan AZƏRTAC-a bildiriblər ki, təhsil kompleksi məktəbi şagirdlərinin iştirakı ilə "Qarabağa hərəmizdən bir fidan" şüarı altında keçirilən xeyriyyə konsertindən əldə olunan vəsait hesabına Qarabağda meşə massivinin salınması layihəsinə töhfə vermək məqsədilə Qarabağ Dirçəliş Fonduna 600 ağac ianə edib.

Qeyd olunub ki, işğaldan azad edilən ərazilərdə ətraf mühitə dəyən zərərin aradan qaldırılması, ekoloji tarazlığın bərpası və ətraf mühitin sağlamlaşdırılması fondun çoxşaxəli fəaliyyətinin mühüm tərkib hissəsidir.

Vurğulanıb ki, fond işğaldan azad edilən ərazilərdə əlverişli həyat şəraitinin yaradılması, ekoloji tarazlığın və təbiət obyektlərinin bərpası üzrə birgə tədbirlərin həyata keçirilməsi ilə regionda dayanıqlı məskunlaşmaya və inkişafa töhfə vermək, müxtəlif ekoloji layihələrin həyata keçirilməsinə dəstək olmaq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıb.

Memorandum çərçivəsində tərəflərin birgə təşəbbüsü və donor şirkətlərin dəstəyi ilə Zəngilanda 30 min ağacdan ibarət olan meşə massivinin salınması layihəsinə start verilib.

Qarabağ Dirçəliş Fondu bu nəcib addım üçün təhsil kompleksinin rəhbərliyinə və əməyi keçən bütün heyətə təşəkkür edir, hər kəsi işğaldan azad edilən ərazilərdə ətraf mühitə vurulan zərərin aradan qaldırılmasına, ekoloji tarazlığın bərpası və yenidənqurma işlərinin təşkilinə, sosial-iqtisadi rifahın yaxşılaşdırılması məsələsinə dəstək olmağa çağırır.

Qarabağın dirçəlişi kimi mühüm bir missiya ətrafında birləşmək, Qarabağın dirçəlişi istiqamətində görülən işlərə dəstək olmaq məqsədilə irəli sürülən belə təşəbbüslər həmrəyliyin təzahürüdür.

Vətənin təbiətini qorumaq, mühafizə etmək, onun flora və faunasına sahib çıxmaq hər birimizin borcu, ümumxalq işidir.

Qarabağı birlikdə daha yaşıl bərpa edəcəyik!

# Ombudsman sosial xidmət müəssisəsindəki repatriantları və Peşə-əmək Reabilitasiyası Mərkəzini ziyarət edib

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin müəssisəsinə yerləşdirilən repatriantları ziyarət edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan hökuməti tərəfindən martın 31-də İraq və Suriyadan ölkəmizə repatriasiya edilmiş qadın və uşaqlardan ibarət daha 7 Azərbaycan vətəndaşı sosial xidmət müəssisəsində zəruri qayğı xidmətləri ilə təmin olunur. Onların sosial-psixoloji vəziyyətlərinin qiymətləndirilməsi aparılır və nəticəyə uyğun olaraq hər bir repatriantla bağlı sosial-reabilitasiyayönümlü fərdi inkişaf planları həyata keçiriləcək və həmin şəxslər öz mənşə ailələrinə verildikdən sonra da davam etdiriləcək.

S.Əliyeva daha sonra Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzini ziyarət edib.

Agentliyin İdarə Heyətinin sədri Vüqar Behbudov mərkəzin fəaliyyət istiqamətləri barədə ombudsmana məlumat verərək bildirib ki, Peşə-əmək Reabilitasiya Mərkəzində 15-29 yaşlı əlilliyi olan şəxslərin peşə hazırlığı və peşə reabilitasiyası həyata keçirilir. Burada kompüter istifadəçisi, montaj-operator, tikişçi, toxuculuq, xalçaçılıq, ağac üzərində oyma, kişi bərbəri, qadın bərbəri, aşpaz köməkçisi və rəssamlıq üzrə 3-6 aylıq kurslar təşkil olunur.

Ombudsman boccia üzrə milli komanda üzvlərinin təlim-məşq prosesi keçməsi üçün yaradılan şəraitlə də tanış olub. Boccia İdman Federasiyasının göndərişi əsasında agentliyin bu mərkəzində boccia üzrə milli komandanın tərkibində çıxış edən idmançıların məşq etməsi üçün hər cür şərait yaradılıb.

Bu il Peşə-əmək Reabilitasiyası Mərkəzinin Xaçmaz rayonunda filialının, eləcə də agentliyin 10 müəssisəsində sosial reabilitasiya kabinetlərinin yaradılacağı da qeyd edilib. Həmin kabinetlərdə xüsusi qayğıya ehtiyacı olan şəxslərlə 20-dək terapiya (musiqi, rəqs, əmək, film, landşaft, səhnə-nağıl, məişət və s.) növü vasitəsilə iş aparılacağı diqqətə çatdırılıb.

# AQTA "Ferrero" şirkətinin bəzi məhsullarının satış şəbəkələrindən geri çağırılması ilə əlaqədar sahibkarlara müraciət edib

İtaliyanın "Ferrero" şirkətinin Belçikada yerləşən müəssisəsində istehsal olunan son istifadə müddəti 20 aprel - 21 avqust, 11 iyul - 7 oktyabr 2022-ci il tarixli bəzi məhsullarında salmonella olması ehtimalı ilə bağlı həmin məhsul partiyaları geri çağırılıb.

Bununla əlaqədar Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən aparılan araşdırmalar zamanı həmin dövrü əhatə edən məhsulların ölkəmizə də idxal olunduğu halları müəyyənləşdirilib. Eyni zamanda, aprelin 6-da agentliyə RASFF (Avropanın Qida və Yem üzrə Sürətli Xəbərdarlıq Sistemi) vasitəsilə bununla əlaqədar bildiriş daxil olub.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ölkəmizə idxalı zamanı həmin məhsullarda risk əsaslı nəzarət tədbirləri çərçivəsində aparılan müayinələr nəticəsində hər hansı uyğunsuzluq, həmçinin salmonella bakteriyasının törədicisi aşkarlanmasa da, "Ferrero" şirkəti tərəfindən həmin partiyaların əsas satış bazarlarından geri çağırılması və məhsulun həssas əhali qrupu tərəfindən istehlak edilməsi nəzərə alınaraq, həmin dövrü əhatə edən məhsulların dövriyyədən çıxarılması, geri çağırılması ilə bağlı sahibkarlara rəsmi məktublar göndərilib.

AQTA bildirir ki, "Ferrero" şirkətinə məxsus son istifadə müddəti 20 aprel - 21 avqust, 11 iyul - 7 oktyabr 2022-ci il tarixi qeyd olunan məhsulların idxalçı şirkətlər tərəfindən geri çağırılması qısa müddətdə təmin olunmalı və bununla əlaqədar agentliyə məlumat verilməlidir.

Agentlik qabaqlayıcı tədbirlər çərçivəsində insanların həyat və sağlamlığının qorunması məqsədilə istehlakçıları Belçikada istehsal edilən və son istifadə müddəti həmin tarixləri əhatə edən bu məhsulları istehlak etməməyə çağırır, həmçinin Belçikada istehsal edilən, son istifadə müddəti həmin dövrə aid olan məhsulları satış şəbəkələrində aşkar etdikdə AQTA-nın "1003 - Çağrı Mərkəzi"nə məlumat verilməsini xahiş edir.

| Məhsul | Qablaşdırmanın ölçüsü | İstifadə müddəti |
|---|---|---|
| Kinder Mini Eggs | 75 qr | son istifadə müddəti 20 aprel 2022-ci il - 21 avqust 2022-ci il tarixlərində bitən |
| Kinder Egg Hunt Kit | 150 qr | son istifadə müddəti 20 aprel 2022-ci il - 21 avqust 2022-ci il tarixlərində bitən |
| Kinder Surprise | 100 qr | son istifadə müddəti 20 aprel 2022-ci il - 21 avqust 2022-ci il tarixlərində bitən |
| Kinder Schokobons | 200 qr | son istifadə müddəti 20 aprel 2022-ci il - 21 avqust 2022-ci il tarixlərində bitən |
| Kinder Surprise | 20 qr | son istifadə müddəti 11 iyul 2022-ci il - 7 oktyabr 2022-ci il tarixlərində bitən |
| Kinder Surprise | 20 qr *3 | son istifadə müddəti 11 iyul 2022-ci il və 7 oktyabr 2022-ci il tarixlərində bitən |

# 2021-2022-ci tədris ilinin payız semestri üzrə rəsmiləşdirilmiş təhsil kreditlərinə dair hesabat təqdim edilib

Aprelin 7-də Təhsil Tələbə Krediti Fondunda kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə fondun İdarə Heyətinin sədri Araz Paşayev çıxış edərək qurumun fəaliyyət istiqamətləri, hədəfləri və prioritetləri barədə danışıb. O, 2021-2022-ci tədris ilinin payız semestri üzrə rəsmiləşdirilmiş təhsil kreditlərinə dair hesabatı təqdim edib. Həmçinin KİV nümayəndələri ilə fondun əməkdaşlıq formatının müəyyən edilməsi məsələlərinə toxunub.

Araz Paşayev vurğulayıb ki, təhsil sahəsində aparılan islahatlar, dövlət proqramları, Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi müvafiq sahənin dövlətimizin başçısının daim diqqət mərkəzində olduğunun göstəricisidir. Məhz bu siyasətin davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 iyun tarixli fərmanına əsasən Təhsil Nazirliyinin tabeliyində Təhsil Tələbə Krediti Fondu yaradılıb. Fondun yaradılmasında əsas məqsəd əhalinin aztəminatlı təbəqələrindən olan şəxslərin təhsilə əlçatanlığını təmin etmək, təhsildə bərabər imkanlar yaratmaq və təhsilin əhatə dairəsini genişləndirməkdir. Təhsil Tələbə Krediti Fondu dünyanın ən qabaqcıl təcrübələrini özündə birləşdirir. Maddi imkanları zəif olan gənclərin təhsilinə dəstək missiyasını həyata keçirən fondun müvafiq istiqamətdə fəaliyyəti ilk günlərdən hiss olunmağa başladı. Qısa müddət ərzində 3 mindən çox tələbəyə təhsil krediti ayrılıb. Ümumilikdə noyabr-mart aylarına olan statistik məlumatlara əsasən, fonda 5 min 700-dən çox tələbə müraciət edib. Onlardan 2899-nun krediti rəsmiləşdirilib. Rəsmiləşdirilimiş kreditlərin 1116-sı sosial, 1783-ü isə standart kredit üzrə daxil olan müraciətlərdir. Təkcə yaz semestri üçün fonda 2 min 700-dən çox müraciət daxil olub.

Fondun İdarə Heyətinin sədri tərəfindən media nümayəndələrinin nəzərinə payız semestrinə dair hesabat təqdim olunub, təhsil tələbə krediti rəsmiləşdirilmələri üzrə iqtisadi regionlar, təhsil müəssisələri və ixtisaslar üzrə statistikaya baxılaraq əldə olunan nəticələr ətrafında fikir mübadiləsi aparılıb. Bunu̇nla yanaşı, görüşdə elektron sistemin işləmə mexanizmi nümayiş etdirilib, elektron sistemə dair suallar cavablandırılıb.

# Korrupsiyaya qarşı mübarizə yeni mərhələyə qədəm qoyub

## Milli Fəaliyyət Planı üzrə tədbirlər planının təsdiq edilməsi bunun göstəricisidir

*Əvvəli 1-ci səh.*

Süründürməçilik və korrupsiya hallarının aradan qaldırılması istiqamətində görülən ən effektli layihələrdən biri kimi "ASAN" xidmət və "DOST" mərkəzlərini göstərmək olar. Şəffaflığın təmin olması, vətəndaşlara xidmətlərin daha da əlçatanlığı üçün bu mərkəzlərin fəaliyyət sahəsi genişləndirilməkdə davam edir.

Korrupsiya ilə mübarizə istiqamətində görülən ciddi tədbirlər, həyata keçirilən islahatlar idarəetmə sistemində çalışanların məsuliyyətini daha da artırıb. Dövlət başçısı yeni təyinatlarda, məmurlarla görüşlərində hər zaman vətəndaş - məmur münasibətlərinə toxunur.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bizimlə söhbətində bildirdi ki, korrupsiyaya qarşı mübarizə tədbirləri 2019-cu ildən daha da geniş miqyas alıb. Bu yöndə bütün hakimiyyət qollarında aparılan dəyişikliklər hazırkı mühüm sərəncamın qəbulu üçün münbit, əlverişli zəmin formalaşdırıb. İlk növbədə hakimiyyət və idarəetmə sistemində institusional və kadr dəyişikliklər edildi. Qeyd etdiyimiz mərama xidmət edən ən güclü addımlar sayılmalıdır.

Deputat deyir ki, iqtisadi xarakterli tədbirlərdə ölkə rəhbəri həmişə məmurların iqtisadi sferaya müdaxiləsinin mənfi nəticələrini qeyd edib. Bu yöndə açıq bəyanat və mesajlar səsləndirib. Bölgələrdə icra hakimiyyəti rəhbərlərinin sahibkarlara, biznes sektoruna, sadə vətəndaşlara müxtəlif xarakterli, o cümlədən səhiyyə, təhsil sisteminə əl qoymaları və oradan külli miqdarda gəlir əldə etmələri fonunda Prezident İlham Əliyev dəfələrlə "zəli kimi insanların bədəninə daxil olmusuz, külli miqdarda var-dövlət əldə edirsiz və bu, məmur fəaliyyəti ilə heç cür uzlaşa bilməz. XXI əsrin reallığı, təfəkkür tərzi ilə çalışmalısız" deyib. Bu o anlama gəlirdi ki, yeni idarəetmə sisteminin yaradılması, hesabatlılığın və şəffaflığın bərqərar olması üçün prezident, belə demək mümkünsə, Qarabağda qələbəyə gətirən mühüm islahatların həyata keçirilməsində iradəli və iddialıdır, bununla da güclü və möhkəm mövqe ortaya qoyub.

Zahid Orucun sözlərinə görə, qeyd edilən sərəncam korrupsiyaya qarşı mübarizə üzrə 6 prioriteti, 70-ə yaxın mühüm vəzifələri və bu sferada ayrı-ayrı dövlət orqanları qarşısında öhdəlikləri və tələbləri özündə əks etdirir:

"Burada bəndlər üzrə ən qabarıq 11 sahəni qeyd etməliyik. Korrupsiya risklərinin hansı sahələrdə mövcud olduğu müəyyənləşməlidir. Yeri gəlmişkən, bu, beynəlxalq praktikada geniş dəyərləndirilən müxtəlif institutların, təşkilatların monitorinqlər apararaq meydana çıxardığı məsələdir. Planda rüşvət və korrupsiya faktları ilə bağlı dövlət strukturlarına, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyaya məlumat verənlərin mükafatlandırılması və həvəsləndirilməsi ilə bağlı məsələsi də var. Bu, bir sıra ölkələrin təcrübəsində özünü doğruldub, ona görə həmin məsələ də qeyd etdiyimiz sənəddə əksini tapıb".

Komitə sədri deyir ki, sərt tədbirlər sırasında 7-dən artıq icra hakimiyyəti rəhbərinin, o cümlədən hökumət, dövlət strukturlarında çalışan və korrupsiya cinayətləri ilə məşğul olan şəxslərin cəzalandırılması fonunda ictimai fikirdə mənimsənilən vəsaitlərin necə geri qaytarılması ilə bağlı fikirlər olur. Bu, həqiqətən də çox önəmli məsələdir. Sözügedən məsələnin proqrama daxil edilməsi müsbət haldır. Qərb idarəetmə sistemində uzun illər mövcud olan maraqların toqquşması məsələsi də tədbirlər planında yer alıb. Məsələn, iki nazirlik hansısa layihə həyata keçirir, bu zaman onların həmin məsələ üzrə mənafeləri ayrı-ayrı hallarda uzlaşmaya bilir. Amma uzlaşma olmayan məsələlər əvvəlcədən müəyyənləşdirilə bilər. Bu, xüsusilə də müəyyən büdcə resursları tələb edən sahələrdə mövcuddur. Maraqların toqquşması ilə bağlı "COPAK" beynəlxalq təşkilatı ölkələr üzrə korrupsiya cinayətlərinin qiymətləndirilməsini aparır. Onlar həmişə maraqlar toqquşması parametrinə önəm verirlər. Zahid Oruc vurğulayıb ki, bu məsələ ilə bağlı həm qanunvericilik sahəsində, həm də praktiki olaraq mühüm addımlar atılmalıdır. Eyni zamanda hakimlərin vəziyyəti ilə bağlı mühüm məsələlər müəyyənləşdirilməlidir. Bəzən problemlər məhkəmə müstəvisinə gəlsə də, oradakı rüşvət və ya başqa xarakterli qanunsuzluqlar məsələnin hüquqi çərçivədə sona çatmasına imkan vermir. Hakimlərin sosial şəraitinin yaxşılaşdırılması qeyd etdiyim istiqamətdə mübarizənin ən mühüm hissəsini təşkil edəcək.

Komitə sədrinin sözlərinə görə, işə qəbul sahəsindəki rüşvət halları son dövrlər azalıb. Əvvəllər təhsil, səhiyyə və digər idarəetmə sektoruna, icra hakimiyyətlərinə işə qəbul zamanı əliəyrilik və rüşvət hallarının geniş yayılması inkar edilə bilməzdi. Proqramda bu məsələ ilə bağlı müvafiq dövlət orqanları qarşısında vəzifələr qoyulub. Əmlak və özəl sektorda fəaliyyət üçün sənəddə müddəalar yer alıb. Vətəndaşlarımızın mənzil, əmlak və torpaq sahələrinin rəsmiləşməyə və qanuniləşməyə gedən mərhələdə, o cümlədən özəlləşmə ilə bağlı məsələlərin şəffaf şəkildə həyata keçirilməsi ilə bağlı proqramda müəyyən tələblər mövcuddur.

Proqrama əsasən, Sosial Tədqiqatlar Mərkəzi müxtəlif hakimiyyət, idarəetmə sistemləri, qurumların fəaliyyətinin xalq tərəfindən məmnuniyyət dərəcəsi, o cümlədən korrupsiyaya uğrama indeksi və digər məsələlərlə bağlı rəy sorğuları, digər xarakterli tədqiqat və araşdırmaları dövlər orqanlarına təqdim edəcək: "Bu, bizi məsuliyyətli edir. Yaxın günlərdə mövzu ətrafında məsul şəxslərlə birgə müzakirəmiz olacaq".

Zahid Oruc bildirib ki, Vətən müharibəsindəki qələbədən sonra cəmiyyətin tələbləri daha da maksimallaşıb. Yeni milli kimlik qazanmışıq. İdarəetmədə, xüsusilə də Qarabağda elə bir idarəetmə sistemi, bölgələrdə infrastruktur, məskunlaşma həyata keçirməliyik ki, korrupsiya problemlərindən azad cəmiyyətin güvəndiyi bir sistemə gəlib çataq və buna nail olaq.

### Azərbaycanda korrupsiya ilə mübarizə üçün ciddi sistem yaradılıb

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev isə deyir ki, Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair Milli Fəaliyyət Planı üzrə tədbirlər planı çox mühüm əhəmiyyət kəsb edən sənəddir. Deputatın sözlərinə görə, Azərbaycanda müxtəlif qurumlarda, icra hakimiyyəti strukturlarında korrupsiyaya qarşı mübarizənin uğurlu fəaliyyətini görmək olar.

Arzu Nağıyev qeyd edir ki, iqtisadi islahatların qarşısını alan meyarlardan biri korrupsiya olduğu üçün bu sahədə tədbirlər planının təsdiqi, mübarizənin icra mexanizminin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, dövlətin korrupsiyaya qarşı həyata keçirdiyi mübarizənin vacib bir hissəsidir.

Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı üzrə tədbirlər planının təsdiqi ölkəmizdə korrupsiyaya qarşı mübarizənin mahiyyət etibarı ilə yeni mərhələyə daxil olmasıdır. İşğaldan azad edilən torpaqlarımızda aparılacaq quruculuq işləri, hərbi sahədə quruculuq, eyni zamanda ərazilərin minalardan təmizlənməsi - hər bir proses şəffaf şəkildə aparılmalıdır. Bu baxımdan tədbirlər planı mühüm əhəmiyyət kəsb edən və vaxtında imzalanan bir sənəddir. Hər bir məmur bu məsələdə öz məsuliyyətini dərk etməlidir, Azərbaycan vətəndaşı isə ictimai nəzarətçi kimi aktiv olmalı, neqativ halların qarşısının alınmasında dövlətin, hüquq-mühafizə orqanlarının yanında olmalıdır.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Aydın Mirzəzadə də qeyd edir ki, Prezident İlham Əliyevin ölkədə korrupsiyaya qarşı mübarizəyə dair imzaladığı sərəncamın böyük əhəmiyyəti var. Onun sözlərinə görə, bu, ilk növbədə ictimai bəla ilə mübarizənin dövlətin əsas siyasət xətlərindən biri və korrupsiyanı aradan qaldırmaq üçün ölkə rəhbərliyində siyasi iradənin olmasının bariz nümunəsidir. Azərbaycanda korrupsiya ilə mübarizə üçün ciddi sistem yaradılıb. İslahatlar korrupsiyanı cəmiyyətimizin ictimai həyatından sıxışdırıb çıxarmağa xidmət edir. Bununla belə, korrupsiyaya qarşı daim mübarizə aparılmalıdır. Korrupsiyanın bu və ya digər formada təzahür etməsinin qarşısı alınmalıdır: "ASAN xidmət" və "DOST" Agentliyi sistemlərinin yaradılması bu sahədə olan boşluqların, çatışmazlıqların aradan qaldırılmasına imkan verib. İnsanlar artıq bu məsələdə hər hansı bürokratik əngəllərdən və ya kimlərinsə çirkin təkliflərindən birbaşa azad olurlar. Eyni zamanda ödənişlərin kart sistemi ilə nağdsız həyata keçirilməsi istiqamətində də böyük işlər görülüb. Bu, hesablaşmanın müasir metodlarla aparılmasına kömək edir. Təsdiq edilən plan bu istiqamətdə aparılan işi daha da möhkəmlətməyi və yeni sahələri əhatə etməyi nəzərdə tutur".

Deputat hesab edir ki, müraciətlərin sistemləşdirilməsi, seçim olan yerdə daha şəffaf mühitin yaradılması üçün uçota götürülmənin dəqiqləşdirilməsi, nağdsız hesablaşmanın bütün sahələri əhatə etməsi, əhalinin hüquqi maariflənməsi - hamısı tədbirlər planında nəzərdə tutulub. Sənəddə həm Azərbaycanın qazandığı təcrübə, həm də xarici ölkələrin təcrübəsi nəzərə alınıb. Prezidentin imzaladığı sərəncam artıq cəmiyyətin diqqətindədir: "Geniş şərhlər verilir, yüksək qiymətləndirilir və hesab edirəm ki, korrupsiya ilə mübarizədə əhəmiyyətli rol oynaya biləcək".

**_Əsmər QARDAŞXANOVA, "Azərbaycan"_**

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İşğaldan azad edilmiş ərazilərdə işləmək üçün 28 ölkədən 226 layihə təqdim olunub



Kapital qoyuluşu iqtisadiyyatın dinamik inkişafında önəmli rol oynayan maliyyə vasitəsidir. Bu üzdən iqtisadiyyatın artan xətlə yüksəlməsi üçün investisiya qoyuluşu mütəmadi xarakter almalıdır. Azərbaycan iqtisadiyyatının bu günə qədərki inkişafında da məhz yerli və xarici sərmayənin yatırılması önəmli rol oynayıb.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-fevral aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 1 milyard 339,7 milyon manat vəsait yönəldilib. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 11,2 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 12,2 faiz artıb.

Hesabat dövründə qoyulan ümumi sərmayənin 25,4 faizi dövlət, 74,6 faizi qeyri-dövlət sektorunun payına düşüb. Yatırılan sərmayənin 60,9 faizindən tikinti-quraşdırma işlərində istifadə olunub. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin dəyəri ümumi sərmayənin 58,2 faizini təşkil edib. Cari ilin ilk iki ayında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 61,1 faizi sənaye, 20,1 faizi tikinti, 11,8 faizi nəqliyyat və anbar təsərrüfatı, qalan hissəsi iqtisadiyyatın müxtəlif sahələrinə sərf olunub.

Bu ilin yanvar-fevral aylarında Bakı şəhərində Tədris və Xidmət Kompleksi, "Xanım Fatimeyi-Zəhra" məscidinin yeni binası, "Qobu" yarımstansiyası və "Qobu" Elektrik Stansiyası, Gəncə şəhərində Gəncə Dövlət Dram Teatrının yeni binası, Gəncə regional "Asan xidmət" Mərkəzi, Gəncə lokomotiv deposu, Ağcabədi rayonunda Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi şəhərciyi və s. mühüm əhəmiyyətli obyektlərin tikintisi tamamlanaraq istifadəyə verilib.

Azərbaycandakı mövcud münbit investisiya mühiti həmişə xarici sahibkarları özünə cəlb edir. Ona görə ki, ölkəmizdə xarici sərmayələrin qorunması üçün mükəmməl qanunvericilik bazası yaradılıb. Bu üzdən dünya iqtisadiyyatındakı çətinliklərə baxmayaraq, Azərbaycan iqtisadiyyatına xarici kapital qoyuluşu davam edir. Hesabat dövrü ərzində xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 560,2 milyon manat vəsait yönəldilib. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş vəsaitin 554,7 milyon manatı Birləşmiş Krallıq, ABŞ, Yaponiya, İsveçrə, Türkiyə, Norveç, Malayziya, Hindistan, Rusiya və İran sərmayədarlarına məxsus olub.

44 günlük Vətən müharibəsində torpaqların işğaldan azad edilməsi ölkəmizə xarici sərmayə qoyuluşuna yeni imkanlar yaradır. Belə ki, bu ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün 28 ölkədən olan xarici şirkətlər dövlətimizə müraciət edib. Onlar tərəfindən Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) 226 layihə təqdim olunub. Bu müraciətlərdə Türkiyə, Rusiya, İsrail və Qazaxıstandan olan sahibkarlar üstünlük təşkil edir.

Dövlət Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında yerli və xarici sahibkarları bərpa-quruculuq işlərində dəstəkləmək üçün müxtəlif stimullaşdırıcı addımlar atır. Gələcəkdə burada çalışan sahibkarlar müxtəlif vergi və rüsumlardan azad oluna bilər. İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərində əsas maliyyə qaynağı dövlət vəsaiti olacaq. Ancaq bu ərazilərə iri məbləğdə xarici investisiya qoyuluşu həyata keçiriləcəyi də heç kəsdə şübhə doğurmur. Ona görə ki, dövlət tərəfindən burada çalışan şirkətlərə hər cür dəstək verilir və onlar da dövlətimizə inanaraq iri layihələrdə iştirak etmək barədə müraciət edirlər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Dünya Bankının regional direktoru ilə müzakirələr aparılıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazir Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığa böyük önəm verdiyini, əlaqələrin çoxşaxəliliyini qeyd edib, Bankın ölkəmizə göstərdiyi texniki yardım və maliyyə dəstəyinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Bildirilib ki, bankla rəqəmsal inkişaf, özəl sektorun diaqnostikası, idarəetmə texnologiyaları, innovasiyalar və digər sahələrdə əməkdaşlıq Azərbaycanda qabaqcıl beynəlxalq təcrübənin tətbiqi və müasir texnoloji yeniliklərin ölkəmizə gətirilməsi baxımından xüsusilə əhəmiyyətlidir.



Görüşdə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, investisiyaların təşviqi və biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilib. Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də müəyyən olunmuş strateji istiqamətlər üzrə 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişafa dair strategiya hazırlanıb. Yeni inkişaf strategiyası dövlət sektorunun yeni keyfiyyətə transformasiyasını, ekosistemin keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını, özəl sektorun, insan kapitalının davamlı inkişafını, rəqəmsal iqtisadiyyatın və innovasiyaların geniş tətbiqi üçün münbit şəraitin yaradılmasını nəzərdə tutur.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Sebastian Molineus bankın Azərbaycanla səmərəli əməkdaşlığını diqqətə çatdırıb, ölkəmizdə aparılan iqtisadi islahatların bir çox beynəlxalq maliyyə qurumu tərəfindən də dəstəkləndiyini, həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində əldə olunan uğurları qeyd edib.

Tərəflər Dünya Bankı ilə tərəfdaşlığın genişləndirilməsi, potensial əməkdaşlıq sahələri, bankın növbəti illər üzrə Azərbaycanda fəaliyyət istiqamətləri, birgə layihələrin icrası, enerji səmərəliliyi, "yaşıl enerji" və s. kimi məsələlər barədə müzakirələr aparıblar.

## Azərbaycan və Serbiya hökumətləri arasında sosial təminat haqqında saziş imzalanıb

### Saziş iki ölkə vətəndaşlarının pensiya hüquqlarının təmin olunmasına xidmət edir

Azərbaycan Respublikası hökuməti ilə Serbiya Respublikası hökuməti arasında sosial təminat haqqında saziş imzalanıb.

Sazişi Azərbaycan Respublikası hökuməti adından əmək və əhalinin sosial müdafiəsi naziri, Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri Sahil Babayev və Serbiya Respublikası hökuməti adından Serbiyanın əmək, məşğulluq, veteranlar və sosial işlər naziri xanım Dariya Kisiç Tepavçeviç imzalayıblar.





Videokonfrans formatında keçirilən imzalanma mərasimində S.Babayev Azərbaycan və Serbiya dövlət başçılarının siyasi iradəsi və səyləri ilə iki ölkə arasında əlaqələrin inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

O, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə aparılan genişmiqyaslı sosial islahatları qeyd edib. Sosial təminat sisteminin gücləndirilməsi və innovativ yanaşmalar əsasında təkmilləşdirilməsi istiqamətində ardıcıl islahatlar aparıldığını bildirib.

S.Babayev iki ölkə arasında bir çox sahədə, o cümlədən əmək və sosial təminat sahəsində əməkdaşlığın genişləndirilməsi və fəal təcrübə mübadiləsinin həyata keçirilməsi üçün böyük potensialın mövcud olduğunu vurğulayıb.

O, xanım D.K.Tepavçeviçin ötən ilin iyul ayında Azərbaycana səfəri çərçivəsində nazirliklər arasında imzalanmış "Əmək, məşğulluq və sosial müdafiə sahəsində Anlaşma Memorandumu"nun ikitərəfli əlaqələrin inkişafında əhəmiyyətini diqqətə çatdırıb.

Yeni imzalanmış sazişin də əməkdaşlığın genişləndirilməsi və fəal təcrübə mübadilələrinin həyata keçirilməsində önəmli rol oynayacağına əminliyini ifadə edib. D.K.Tepavçeviç Serbiya və Azərbaycanın dost münasibətləri əsasında əlaqələrinin bu gün strateji tərəfdaşlıq səviyyəsində olmasının məmnunluq doğurduğunu bildirib. O, iki ölkə arasında daim genişlənən əlaqələrin artıq əmək, məşğulluq və sosial müdafiə sahələrini də əhatə etməyə başladığını və gələcəkdə iki nazirliyin əməkdaşlığının daha da genişlənəcəyinə əminliyini qeyd edib.

İmzalanan saziş iki ölkə vətəndaşlarının pensiya hüquqlarının təmin olunması baxımından mühüm önəm kəsb edir. Sənəd Azərbaycan və Serbiya vətəndaşlarının bu dövlətlərin ərazisində qazanmış olduqları pensiya və sosial sığorta üzrə digər hüquqlarının tanınması və qorunması mexanizmlərini müəyyən edir.

Saziş həmin istiqamətlər üzrə tərəf dövlətlərin səlahiyyətli orqanları arasında əməkdaşlığın müvafiq hüquqi çərçivədə həyata keçirilməsinə şərait yaradır.

## TAP



## Kəmərin genişləndirilməsi günün müzakirə mövzusudur

Avropanın mavi yanacağa tələbatının çoxaldığı indiki dövrdə gündəmə gələn əsas məsələlərdən biri "Cənub qaz dəhlizi"nin genişləndirilməsidir. Bu baxımdan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) ötürücülük qabiliyyətinin artırılması mühüm əhəmiyyət kəsb edir.

TAP "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti və Azərbaycandan Avropa bazarlarına ildə 10 milyard kubmetr qaz tədarükünü həyata keçirən qovşaq layihəsidir. Boru kəməri 878 kilometr məsafə boyu uzanır. Xəttin 550 kilometri Yunanıstandan, 215 kilometri Albaniyadan, 105 kilometri Adriatik dənizinin dibindən keçir və 8 kilometrlik hissəsi İtaliya sahillərində quruya çıxır. Burada TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqli şəbəkəsinə qoşulur.

TAP-la kommersiya qaz nəqlinə 2020-ci ilin sonuncu günü başlanıb. Həmin vaxtdan bəri Azərbaycan qazı Yunanıstanın Kipoi bölgəsindəki stansiyadan Avropaya çatdırılır. Bu il mart ayının ortalarınadək ölkəmizdən Avropaya ümumilikdə 10 milyard kubmetr təbii qaz daxil olub. Hazırda TAP boru xətti ilə gündəlik olaraq 30 milyon kubmetrədək qaz nəql edilir.

Tələbat isə getdikcə artır. Bu da "Cənub qaz dəhlizi"nin "qollar"la şaxələndirilməsini, həmçinin ayrılmaz hissəsi olan TAP-ın genişləndirilməsini gündəmə gətirir. Odur ki, indi TAP-ın genişləndirilməsi ən çox müzakirə edilən məsələlərdəndir. Bu mövzuya cari ayın əvvəlində İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı keçirilən görüşlərdə də toxunulub. "Azərbaycan-İtaliya: "Çoxölçülü strateji tərəfdaşlığın gücləndirilməsinə aparan yol" konfransında ikitərəfli enerji əməkdaşlığının möhkəmlənməsində TAP-ın rolu yüksək qiymətləndirilib. Avropadakı istehlakçıların mavi yanacağa tələbatının artması səbəbindən kəmərin genişləndirilməsi üzrə fəaliyyətə başlamağın vacibliyi qeyd edilib.

Mavi yanacaq tədarükünün əhəmiyyəti, böyük qaz resurslarının mövcudluğu, təbii qazın enerji keçidində mühüm rolu və təchizat mənbələrinin şaxələndirilməsinə artan maraq TAP-ın genişləndirilməsinə imkan yaradır. Hazırkı artım tempinin davam edəcəyi təqdirdə bu ilin sonuna qədər İtaliyaya uzunmüddətli və spot müqavilələr əsasında qaz ixracımızın 9,5 milyard kubmetrə çatacağı gözlənilir. TAP-ın genişləndirilməsi yalnız İtaliyanı deyil, Avropanın digər ölkələrini də daha çox təbii qazla təmin edə bilər.

Sözügedən tədbirdə həmçinin TAP-ın genişləndirilməsi ilə 10 faiz həcmində hidrogen qarışığının nəqlinin də mümkünlüyü qeyd olunub. Dənizdə külək enerjisindən istifadə ilə Avropaya "yaşıl enerji" və "yaşıl hidrogen" ixracının da gündəlikdə olduğu vurğulanıb.

TAP-ın potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir. Hazırda TAP-ın genişləndirilməsi üzrə bazar araşdırması aparılır. İki mərhələdə aparılan bazar araşdırması ilə kəmər üç genişləndirmə ssenarisi təklif edir. Bunlardan biri məhdud (təqribən ildə 14,4 milyard kubmetr) genişləndirmədir. Qismən genişləndirmə (illik 17,1 milyard kubmetr) və tam genişləndirmə (ildə təxminən 20 milyard kubmetr) digər iki ssenaridir.

TAP-ın çatdırdığı təbii qaz həcmləri Avropa İttifaqı üçün yeni, etibarlı, təhlükəsiz və sərfəli enerji mənbəyi təmin edir. Bu kəmər Cənub-Şərqi Avropa ölkələrini də qazla təchiz edə bilər. Boru kəmərinin Yunanıstan ilə Albaniyadakı çıxışları və İtaliya sahilinə çıxışı Azərbaycan qazının geniş Avropa bazarlarına tədarükü üçün çoxsaylı yol açır. Layihə Azərbaycan qazının Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılmasına böyük imkanlar yaradır.

Bu il yanvarın 12-də Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində cari ildə Azərbaycanda 45 milyard kubmetr qazın hasil olunmasının gözlənildiyini demişdir: "Bu, böyük həcmdir və əlbəttə, bizə imkan verəcək ki, həm öz tələbatımızı ödəyək, eyni zamanda Avropa məkanına daha böyük həcmlə çıxa bilək. Məhz bizim bu layihəmiz eyni zamanda Avropa ölkələri arasındakı interkonnektorların, bağlantıların tikintisinə də rəvac verdi və indi orada bu sahədə də işlər görülür. Beləliklə, fiziki olaraq, yəni infrastruktur nöqteyi-nəzərindən biz qazımızı başqa ölkələrə də çatdıra bilərik, nəzərə alsaq ki, "Şahdəniz"in çox böyük potensialı var".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Pensiya, müavinət, təqaüd, ünvanlı yardım üzrə əhaliyə 1,6 milyard manatdan çox vəsait ödənilib

Cari ilin yanvar-mart aylarında pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə ödənişlərdə artım dinamikası davam edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən həmin dövrdə qeyd olunan istiqamətlər üzrə əhaliyə 1 milyard 613 milyon manat vəsait ödənilib. Bu da ötən ilin eyni dövrünə nisbətən 5,9 faiz və ya 89,7 milyon manat çoxdur.

Qeyd edək ki, növbəti islahat paketi olaraq cari ilin əvvəlindən əmək haqqı, pensiya və müavinətlərin, təqaüdlərin növbəti dəfə artırılması təmin edilib.

Bu artımlar üçün illik əlavə 2,1 milyard manat vəsait ayrılıb, artımların şamil olunduğu şəxslərin sayı isə 3,4 milyon nəfərdir.

## Reinteqrasiya üzrə beynəlxalq məsləhətçi ilə görüş olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində himayədar ailə, reinteqrasiya üzrə beynəlxalq məsləhətçi Hyu Salmon ilə görüş olub.

Ölkəmizdə himayədar ailə institutunun tətbiqinə hazırlıq işlərindən bəhs edən əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli bu sahədə qabaqcıl dünya təcrübəsinin öyrənilməsinə mühüm önəm verildiyini vurğulayıb.

"Himayədar ailə" qayğı modelinin uşaqlara qayğı sisteminin dünyada geniş yayılmış nümunələrindən olduğu qeyd edilib. Həmin modelin uşaqların ailə mühitində yaşamalarına və inkişafına şərait yaratdığı diqqətə çatdırılıb. Bu sahədə Türkiyə təcrübəsinin öyrənildiyi də bildirilib.

H.Salmon tərəfindən müvafiq sahələrdə çalışan əməkdaşlara reinteqrasiya, qeytkipinq, himayədar ailə üzrə müvafiq mütəxəssis konsultasiyaları verilməsi nəzərdə tutulub.

## Daha 6424 fermerə ümumilikdə 12 milyon 195 min manat subsidiya verilib

### İndiyədək payızlıq əkinlərə görə 235 min nəfərdən çox fermer 152 milyon manata yaxın subsidiya alıb

Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) 2021/2022-ci il payızlıq əkinlərə görə subsidiyaların ödənişini davam etdirir. Aprelin 7-də AKİA tərəfindən payızlıq əkinlərə görə 6424 fermerə, ümumilikdə 12 milyon 195 min manat subsidiya ödənişi həyata keçirilib. Bu gün ödənilən subsidiyalar 59 min 709 hektar əkin sahəsini əhatə edir.




Bununla da 2021/2022-ci il üçün ümumilikdə 768 min 520 hektar əkin sahəsi üzrə 235 min nəfərdən çox fermerə payızlıq əkin subsidiyası ödənilib. Ödənişin ümumi miqdarı 151 milyon 700 min manatdan çoxdur.

Qeyd edək ki, subsidiyalar kənd təsərrüfatı məhsulları istehsalçılarının "Fermer kartı"na köçürülür. Fermerlər qanunvericiliyə uyğun olaraq, karta köçürülmüş vəsaitin 25 faizini bankomatlar vasitəsilə nağdlaşdıra, 75 faizini isə qeyri-nağd şəkildə kənd təsərrüfatı istehsal vasitələri, o cümlədən mineral gübrə, pestisid, bihomus, herbisid, toxum ala bilər, həmçinin meyvə bağlarında müasir suvarma sistemlərinin alınmasına və qurulmasına sərf edə bilərlər.

Hazırda payızlıq əkinlərini Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan etmiş fermerlərin əkin məlumatları və torpaq sənədlərinin yoxlanması davam edir. Sahələrində monitorinqlər başa çatmış, torpaq sahələrindən verdikləri aqrokimyəvi analizin nəticələrini və sahələri sığorta etdirmələrinə dair müqavilələrin surətini EKTİS-ə daxil etmiş fermerlərin siyahısı hazırlanır və hər həftə bu siyahılar üzrə subsidiyaların ödənilməsi elektron qaydada həyata keçirilir.

Subsidiyaların ödənişi davam edir.





# Qarabağda qiymətli mineral sular var

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi sayəsində 44 günlük Vətən müharibəsi Azərbaycanın böyük zəfəri ilə başa çatdı. İşğal altında olan ərazilərimiz erməni quldurlarından azad edildi. İndi həmin ərazilərimizdə böyük quruculuq işləri aparılır. Erməni vandallarının yerləyeksan etdikləri ərazilərimiz, meşələrimiz, tarixi və mədəni abidələrimiz, dağıdılmış gözəl su mənbələrimiz, saf bulaqlarımız yenidən bərpa olunur.

Azərbaycan Respublikasının ərazisi, xüsusilə də Qarabağın dağlıq hissəsi dünya əhəmiyyətli mineral su mənbələri ilə məşhurdur. Erməni vandalları bu sərvətlərimizi də darmadağın etmişlər, bəzilərini isə başqa adlarla dünya bazarına satışa çıxarmışlar. Hazırda bu sərvətlərin bərpası, xalqın sağlamlığına sərf olunması, həmçinin ekoturizmi bərpa etmək və bu mineral sulardan səmərəli istifadə etməyin də vaxtı çatmışdır.

Görkəmli rus alimi, geokimya elminin banisi V.İ.Vernadski öz əsərlərində dəfələrlə qeyd etmişdir ki, geokimyəvi və geoloji proseslərdə suyun iştirakı vacibdir. İnsanların məişətində yeraltı suların isə mühüm rolu var. Onların növləri içərisində mineral sular xüsusi əhəmiyyətə malikdir. Mineral sular şüşələrə doldurularaq mənbələrindən çox uzaqlara daşınır və əhali tərəfindən geniş istifadə edilir. Mineral suların bəziləri isti su halında yer üzərinə çıxır. Bunların isə faydası və əhəmiyyəti daha çoxdur.

Son zamanlarda isti sulardan müalicə məqsədi ilə yanaşı, digər sahələrdə də geniş istifadə olunur. Azərbaycandakı müxtəlif mineral su növlərinin müalicəvi xüsusiyyətləri çox qədim zamanlardan məlumdur.

Qarabağın mineral sularının şəfalı bir vasitə olduğunu yazıçılar, səyyahlar da qeyd etmiş, aşıqlar onların faydalarına bayatılar, təcnislər, gəraylılar qoşmuşlar. Ayrı-ayrı xalqların mədəniyyət tarixi ilə tanışlıqdan aydın olur ki, qədim insanlar da mineral sulardan müalicə vasitəsi kimi istifadə etmişlər. Onlar işığa, suya, havaya əsas müalicə vasitəsi kimi baxmışlar.

Respublikamızın mineral sularından uzaq keçmişdən bəri müalicə məqsədilə istifadə olunmasını sübut edən xəritələr - bu sular ətrafındakı daşlardan çapılmış vannalar (hovuzlar) indiyədək durur.

Azərbaycanda olan bir çox mineral su bulaqlarının adları onların müalicə xassələrinə uyğun verilmişdir. Qoturlusu bulağı - qoturluq xəstəliyini, Yelisu bulağı - yel xəstəliyini müalicə edir. İstisu bulaq suyunun isti olduğu üçün onlara bu cür adlar verilmişdir. Bəzi isti mineral su bulaqlarının ətrafında tikilmiş qədim vanna binaları indiyədək qalmaqdadır (Xaltan, Cimi, İstisu və s.). 1937-ci ildən başlayaraq Azərbaycanın ən mühüm mineral su yataqlarının çoxunda (İstisu, Turşsu, Çuxuryurd, Masallı, Meşəli və s.) kompleks elmi-tədqiqat işləri aparılmışdır.

Azərbaycan ərazisində 1000-dən çox mineral su bulaqları var. Yer kürəsinin müxtəlif yerlərində suların temperaturu fərqlidir (qütb rayonlarında $0^0$ C-dən aşağı və vulkanik regionlarda $100^0$C-dən yuxarı). Azərbaycanın mineral sularının temperaturu $4^0$ C-dən $65^0$ C-yə kimi dəyişir. Bunlardan Qoturlu ($65^0$ C), Donuzötən ($64^0$ C), İstisuyu ($62^0$ C) göstərmək olar. Karbon qazlı sulara hər yerdə təsadüf edilmir. Azərbaycan ərazisində bu sular ancaq Kiçik Qafqaz dağları rayonunda və Naxçıvanda yayılmışdır. Karbon qazlı sulardan ən məşhurları: Sirab, Hahacır, İstisu, Badamlı, Turşsu, Darıdağ, Çayqarışan, Qızılca və sairədir.

Geoloji və geokimyəvi şəraitin xüsusiyyəti ilə əlaqədar olaraq bəzi rayonların yeraltı sularında radioaktiv elementlər olur. Çaylarda ən çox yayılan radioaktiv mənşəli elementlərdən radon qazını göstərmək olar. Radon qazının sularda olması onların müalicəvi xüsusiyyətlərini yüksəldir. Təbiətdə radonlu sulara nadir hallarda rast gəlinir. Azərbaycan şəraitində isə bu cəhətdən Kəlbəcər və Laçın rayonları diqqəti cəlb edir. Bağırsaq adlanan (Kəlbəcər rayonu) mineral sular radonlu suların ən parlaq növüdür.

Təbiətdə radioaktiv suların əmələ gəlməsi onların çox yavaş süzülmələri ilə əlaqədardır. Sular çətinliklə süzülərsə onlarda radioaktiv elementlərin və radon qazının toplanması üçün şərait əmələ gəlir. Azərbaycanın mineral sularında radon qazının yüksək olması gələcəkdə bu suların olduğu yerlərdə xüsusi müalicəxanalar təşkil edilməsinə imkan verir.

Respublikamızın mineral sularının ümumi miqdarından - 34 bulaq radonlu sulara aiddir. Azərbaycan fiziki-coğrafi cəhətdən çox kəskin dəyişən relyef quruluşuna malikdir. Geoloji quruluşun və süxur tərkibinin xeyli mürəkkəbliyi, illik yağıntı miqdarının dəyişkənliyi respublikamızın ərazisində xüsusi hidrogeoloji şəraitin yaranmasında əsas amildir.

Bəzi yerlərdə meşəliklərin, dağlıq rayonlarda sıx çay şəbəkələrinin və buzlaq örtüklərinin olması, digər tərəfdən yüksəklaylı qatlardan ibarət yura, təbaşir, üçüncü və dördüncü qum daşları, sulfatlar, habelə qırıntı süxurların çox yayılması, eləcə də maqmatik və metamorfik süxurların olması qeyd olunan hidrogeoloji şəraitin xüsusiyyətlərini bir daha təsdiq edir. Bütün bunlarla əlaqədar Azərbaycanda müxtəlif tipli yeraltı su xəzinələri əmələ gələ bilmişdir.

Kiçik Qafqazda ən çox nəzərə çarpan ərazilər İstisu-Kəlbəcər hidrotermal ərazidir. Bu ərazinin bir ucu Ermənistan ərazisində Cermux sularına qədər uzanır. Kəlbəcərdən Cermuxa kimi 50 kilometr məsafədə 5 qrup eyni tipli isti sulara təsadüf edilir: Bağırsaq, Yuxarı İstisu, Aşağı İstisu, Kəlbəcər suları (Azərbaycan) və Cermux (Ermənistan). Suların kimyəvi tərkibləri mürəkkəb olmaqla dünyada nadir tapılan qiymətli növlərdəndir. Onlar yüksək temperaturu olan sulardır ($75^0$ C).

Laçın rayonu ərazisində isə hidrotermal ılıq sular yerləşir. Suların temperaturu nisbətən alçaq olub 24-$29^0$, $6^0$ C-dir. Sutka ərzində bu ərazilərdən təqribən 2 milyon litrə kimi su çıxır. Suların temperaturlarının mənşəyi elmdə maraqlı məsələlərdən biridir. Avstriyalı alim E.Züsün fikrincə, (Çexiyanın məşhur Karlovı Varı isti suları timsalında) təbiətdəki isti sular yerin daxilindəki maqmadan əmələ gəlir.

Qafqazda məlum olan isti suların geoloji quruluşu və hidrogeoloji şəraitinə aid faktiki materiallar göstərmişdir ki, təbii suların istiliyi heç də yerin daxili maqması ilə əlaqədar deyildir. Bu suların temperaturu onların əmələ gəlməsini təmin edən mürəkkəb geoloji tarixlə bağlıdır.

Qədim geoloji dövrlərdə - onlarla, yüz milyonlarla il bundan əvvəl Kiçik Qafqazın indiki əraziləri su altında olmuşlar. Bu ərzilərdə paralel istiqamətdə uzanan, çox geniş ərazini tutan nəhəng Tetis okeanı yerləşirmiş. Geoloji eralar dəyişdikcə okeanın sahillərinin forması və dibi dəyişmiş, ora müxtəlif çöküntülər çökmüş, sualtı vulkan püskürmələri baş vermişdir. Yer qabığı müxtəlif istiqamətlərdə təzyiqlərə məruz qalmışdır ki, bu da vaxtaşırı bu və digər ərazilərdə pozulmaların (qırılmalar, tökülmələr, yerdəyişmələr) əmələ gəlməsinə səbəb olmuşdur. Bütün bu hadisələr Kəlbəcər rayonu ərazisini də əhatə etmişdir. Adətən belə vulkan püskürmələrindən sonra sakitlik dövrü olmuş, bu vaxt okeanın dibində əhəngdaşları - dəniz heyvanlarının qalıqları toplanmışdır. Sonra isə qum qarışıq tuflu qumların atılması baş vermişdir.

Üçüncü dövrdə okean geri çəkilmiş, dibi qalxaraq, yüksək zirvələri olan dağ sistemləri əmələ gəlmişdir. Boşluqlara qranit tipli maqma dolmuş və beləliklə əmələ gəlmiş süxurların Tərtər çayı boyunca İstisudan genişlənərək cənub-şərqə doğru Mıxtökən dağına qədər (Dəlidağ) uzanmışdır. Təsvir olunan bütün süxurlarda, o cümlədən də qranitlərdə dağəmələgəlmə hərəkətləri vaxtı çoxlu çatlar baş verir ki, oraya növbəti odlu-qaynar kütlə daxil olur və süxurların çoxu damar şəklində yayılan-diabazlar, partitlər, dasitlər, andezit-dasitlərin yaranmasına gətirib çıxarır. Göstərilən qırışıqlar üçüncü dövrə - pliosenə aid edilir. Bu maraqlı geoloji xüsusiyyət geniş bir sahədə, nəinki Kəlbəcər rayonunda, onun kənarlarında yerləşən Ermənistanda da yayılmışdır. Qırışıqların və pozulmaların belə istiqaməti, həmçinin damar formalı yayılmalar böyük dərinliklərdən mineral suların yer səthinə çıxması və onun sirkulyasiyası şəraiti ilə izah olunur.

Lava axınları qüvvətli çatlara və məsaməliliyə, qabarıqlığa malikdirlər. Ona görə də onlar yaxşı rütubət tutumludur və bu lava axınının içərisində mürəkkəb su ehtiyatı yaradır ki, onlar da gözəl bulaqları və xırda axınları qidalandırırlar. Məsamələr bərkləşmiş vulkan lavasından sürətlə qazların ayrılması nəticəsində əmələ gəlir.

Beləliklə, süxurların məsaməliyi vacib hidrogeoloji amil olmaqla, məsamələrin filtrasiya (süzülmə) qabiliyyəti süxurların xüsusiyyətindən, yayılma dərəcəsindən və eləcə də onların tutduğu həcmdən asılıdır. Tərtər çayı hövzəsində mineral çöküntüləri əmələ gətirən ən cavan mənbələr travertin adlanan çöküntülərdir.

Qarabağın dağlıq hissəsinin kurortlar qrupuna şimaldan-cənuba doğru, yəni Xankəndidən Şuşaya kimi bu rayonun bütün ərazilərində uzanan kurort zonası xüsusilə diqqəti cəlb edir. Məlum olan mineral su bulaqlarının əksəriyyəti: Turşsu, Şirvan, Çərəktar, Kolataq, Zardanaşen, Tumu və s. bu zonanın qərb hissəsində yerləşir.

Yüksək dağlıq quruluşu, quru və seyrək havası, bol günəşli günlərin və aktiv insolyasiyanın olması, yayların az istiliyi, qışların çox soyuq keçməməsi, bahar və payız fəsillərinin mülayimliyi, temperaturun kəskin düşməməsi, küləklərin nadir və zəif, yağıntıların çox olmaması, subtropik iqlim şəraiti - bütün bunlar Qarabağın dağlıq hissəsinin kurortlar qrupunun üstünlüyünü təmin edir. Olduqca geniş yayılan meyvə bağları may ayından başlamış oktyabra kimi əhalini müxtəlif növlü təzə meyvələrlə təmin edir. Bundan əlavə meşələrdə külli miqdarda yabanı giləmeyvələr: böyürtkən, moruq, çiyələk, habelə alma, armud, zoğal, fındıq və s. vardır.

Kəlbəcər kurortlar qrupu rayonu Kiçik Qafqaz dağlarının mərkəzi hissəsində 1800-2000 metr hündürlükdə yerləşir. Burada olduqca qiymətli mineral sular vardır. Bu kurortlar qrupunda 81 mineral su aşkar edilmişdir.

Müalicə əhəmiyyətli kurortların tikilməsi və sənaye zavodlarının inşası üçün əhəmiyyətli olan mineral su yataqları bunlardır: Bağırsaq, Yuxarı İstisu, Aşağı İstisu, Kəlbəcər ətrafı, Qoturlu və Çərəktar. Sovetlər dönəmində Yuxarı İstisuda böyük kurort mərkəzi tikilmişdir. Torpaqlarımız işğaldan azad edildikdən sonra bu ərazilərdə kurortların və ekoturizmin yaradılması ən aktual məsələlərdən biridir.

Laçın kurortlar qrupunda gələcəkdə kurortlar yaradılması üçün əlverişli olan bu rayon Kəlbəcər rayonunun qonşuluğunda, 1500-2500 metr hündürlükdə yerləşir. Bu rayonda 16 mineral su bulağı artıq öyrənilmişdir. Bu rayonlarda hələ kurortların yaradılması işinə başlanmasa da, perspektivdə bu rayonda olan - İlıqsu, Turşsu, Laçın bulaqlarından geniş istifadə etməklə, ekoturizm marşrutlarını xeyli genişləndirmək olar. Alimlərin fikrincə, Qarabağın dağlıq hissəsinin saf bulaqları Kislovodski, Abastuman və hətta İsveçrə, İtaliya kurortlarından üstün şəraitə malikdir. Keçən əsrin 50-ci illərinin sonlarında İstisuda və Turşsuda mineral suları şüşələrə dolduran zavod işləyirdi.

Qarabağın isti sularının tükənməz və ucuz istilik enerjisindən sənaye və kənd təsərrüfatında, kommunal işlərində və elektrik qüvvəsi istehsalında müvəffəqiyyətlə istifadə etmək mümkündür. Qızmış buxarlar və isti sular xalq təsərrüfatının müxtəlif sahələrində istifadə edilə bilər.

***Telman XƏLİLOV,***
***BDU-nun professoru***





# Sonun başlanğıcı

COVID-19 virusu hələ də bəşəriyyəti ciddi şəkildə təhdid edən problem olaraq qalmaqdadır. Pandemiya ilə qlobal səviyyədə mübarizəyə rəğmən, infeksiyanın qarşısını tamamilə almaq mümkün olmayıb.

Hətta son günlər bəzi ölkələrdə yoluxmalarda kəskin artım qeydə alınıb. Vaksinasiya prosesi ümumən arzuolunan səviyyədə davam etsə də, istənilən həlledici qələbəyə, deyəsən, hələ çox var. Mütəxəssislərin fikrincə, təbiətdə və insanlar arasındakı virus sirkulyasiyası kollektiv immunitet tam formalaşanadək davam edəcək.

Dünya düzənini silkələyən gözəgörünməz düşmənlə hələlik ən effektiv mübarizə üsulu peyvəndləməni davam etdirmək, fiziki məsafə saxlamaq, qapalı məkanlarda tibbi maskadan istifadə, karantin rejiminə və gigiyenik qaydalara ciddi riayət etməkdir. Son iki il ərzində, yəni pandemiya dövründə müşahidə etdiyimiz xəstəliyin gedişatı, virusun mutasiyaları, yeni ştamların meydana çıxması hamını səbirli, ehtiyatlı olmağa vadar edir.

Gələk ölkəmizdə pandemiyanın mənzərəsinə və nəticələrinə. Son dövrdə mənfi tendensiyanın müsbətlə əvəzlənməsi pandemiya ilə mübarizədə Azərbaycanın uğurlu dövlət siyasətinin təzahürüdür. Həyata keçirilən çevik və səmərəli tədbirlər, vaxtında qəbul edilən qərarlar, tələb olunan müasir tibbi sənayenin formalaşdırılması, qısa müddətdə onlarla ixtisaslaşmış xəstəxananın yaradılması, yüksəkixtisaslı tibbi xidmətlərin təşkili və yeri gəlmişkən, müxtəlif ölkələrdən təcrübəli mütəxəssislərin Azərbaycana gətirilməsi, müvafiq təbliğat işlərinin peşəkar səviyyədə təşkili, vətəndaşlarımızın mövcud vəziyyətə həssas münasibəti sayəsində COVID-19-la bağlı vəziyyəti ilk gündən nəzarət altında saxlamaq mümkün olub. Bu sırada bir çox dövlətlər üçün əlçatmaz olan bahalı və ən müasir standartlara malik diaqnostik alətlərin, tibbi avadanlıq və ləvazimatların, qoruyucu vasitələrin vaxtında ölkəmizə gətirilməsi xüsusi qeyd olunmalıdır. Paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı. Ölkədəki tələbatı qarşılamaq məqsədilə qoruyucu və dezinfeksiya vasitələrinin istehsalı təşkil olundu. Bölgələr də daxil olmaqla, modul tipli xəstəxanaların quraşdırılmasına başlandı. Azərbaycan dövlətinin pandemiyaya qarşı mübarizə istiqamətində atdığı mühüm addımlar sırasında böyük əhəmiyyət daşıyan bu xəstəxanalar koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmənin və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynadı. Bütün bunların həyata keçirilməsində, o cümlədən tibb müəssisələrinin vaksinlərlə təmin edilməsində, yüksək effektliyə malik test vasitələri bazasının yaradılmasında Prezident İlham Əliyevin müdrikliyi, iradəsi, Mehriban xanım Əliyevanın qayğısı həlledici rol oynadı.







Nəticə göz önündədir. Son statistik nəticələr Azərbaycanda COVID 19-la bağlı vəziyyətin qənaətbəxş olduğunu söyləməyə əsas verir. Yoluxma və ölüm faktları kəskin azalıb. İndi pandemiya ilə əlaqədar epidemioloji vəziyyət tam nəzarət altındadır. Karantin rejiminin tədricən, mərhələli şəkildə yumşaldılması, dövlətimizin pandemiya ilə mübarizədə apardığı ehtiyatlı tədbirlər proqramı öz effektiv nəticələrini göstərir. Görülən əks-epidemik tədbirlərin səmərəliliyi nəticəsində pandemiya xəstəxanalarında olan xəstələrin sayı kifayət qədər azalıb. Artıq bəzi pandemiya xəstəxanalarının yenidən əvvəlki qaydada fəaliyyət göstərməsi ilə bağlı qərar verilib. Hazırda əsas məsələ əldə olunan bu müsbət dinamikanı qoruyub saxlamaqdır.

Görünən odur ki, koronavirusun sonuna yaxınlaşırıq. Bu mübarizədə sonun başlanğıcı mərhələsindəyik. Hazırda bir çox məhdudiyyətlər aradan qaldırılıb. Amma yumşalmalara gedilməsi pandemiyanın başa çatması anlamına gəlməməli və arxayınlıq yaratmamalıdır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Avropa İttifaqı-ÜST layihəsi çərçivəsində yerli səhiyyə qurumlarına 600-dən artıq avadanlıq təhvil verilib

7 Aprel - Ümumdünya Sağlamlıq Günündə Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən həyata keçirilən "COVID-19 əleyhinə vaksinasiyaya dəstək" layihəsi çərçivəsində ÜST-ün Azərbaycan nümayəndəliyi avadanlıqların təhvil-təslim mərasimini təşkil edib.

AZƏRTAC xəbər verir ki, hər il aprelin sonunda keçirilən ənənəvi Avropa İmmunlaşdırma Həftəsi ərəfəsində təşkil edilmiş tədbirdə Azərbaycan Respublikası səhiyyə nazirinin müavini Nadir Zeynalov, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov, ÜST-ün Azərbaycandakı nümayəndəsi və ölkə ofisinin rəhbəri Hande Harmancı, Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko və yerli səhiyyə tərəfdaşları iştirak ediblər.

Tədbirdə yeni növ koronovirus (COVID-19) pandemiyası ilə mübarizədə həmin layihə çərçivəsində görülmüş işlər və əldə edilmiş əsas nailiyyətlər qeyd edilib. Ölkədə həm COVID-19, həm də rutin peyvəndlərin saxlanması üçün soyuq zəncir sisteminin gücləndirilməsi məqsədilə Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzlərinə hər biri 145 litr peyvənd tutumuna malik 100 peyvənd soyuducusu, TƏBİB-ə isə hər biri 98 litr peyvənd tutumuna malik 200 peyvənd soyuducusu təhvil verilib. ÜST tərəfindən kvalifikasiya olunmuş bütün soyuducular enerji stabilizatoru və 30 günlük temperatur monitorinqini təmin edən cihazla təchiz edilib. Peyvənd soyuducularından əlavə, yerli səhiyyə tərəfdaşlarına səyyar immunlaşdırma kampaniyalarında istifadə məqsədilə xüsusi dizayn edilmiş 122 portativ peyvənd daşıyıcısı, həmçinin rəqəmsallaşma və nəzarət mexanizminin gücləndirilməsi məqsədilə 102 kompüter, 79 printer və 79 enerji qaynağı cihazı (UPS) təqdim edilib.

Qeyd edək ki, peyvəndlərin təhlükəsiz şəraitdə saxlanması və daşınmasının təmin edilməsi məqsədilə "COVID-19 əleyhinə vaksinasiyaya dəstək" layihəsi çərçivəsində əlavə avadanlıq və cihazların təhvil-təslimi planlaşdırılır. Bu məqsədlə aprel ayının sonlarında ÜST-ün Azərbaycan nümayəndəliyi tərəfindən daha 500 peyvənd daşıyıcısı TƏBİB-ə təhvil veriləcək. Təhvil verilmiş avadanlıqlardan düzgün istifadənin təmin edilməsi məqsədilə yerli tibb müəssisələrinin əməkdaşları üçün müvafiq təlimlərin keçirilməsi nəzərdə tutulur.

Təhvil-təslim mərasimində səhiyyə nazirinin müavini Nadir Zeynalov deyib: "Vaksinasiya prosesində vacib məqamlardan biri də peyvəndlərin müəyyən sabit temperaturda saxlanılmasıdır. Bu, "soyuq zəncir sistemi" adlanır. Həmin sistemin təminatında həm stasionar, həm də daşınan soyuducuların böyük rolu var. Bu gün kiçik və böyük stasionar soyuducuların, daşınan portativ çantaların və kompüter avadanlıqlarının təhvil verilməsində iştirak edirik. Həmin avadanlıqlar peyvəndləmə prosesində iştirak edən qurumlar arasında paylanılacaq və vaksinasiya prosesinin icra edilməsi və onun qeydiyyatını xeyli asanlaşdıracaq, ölkəmizin səhiyyə sisteminə texniki dəstək göstərəcək".

TƏBİB-in İdarə Heyətinin sədri vəzifəsini icra edən Vüqar Qurbanov layihə barədə öz fikirlərini belə ifadə edib: "Vaksinasiyaya dəstək layihəsi çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatının təşkilatçılığı və Avropa İttifaqının maliyyə dəstəyi ilə bir sıra avadanlıqların - soyuducular, kompüter avadanlıqları və vaksinlərin ərazi üzrə daşınması üçün konteynerlərin təhvil-təslim prosesi aparıldı. Bizə təqdim olunan avadanlıqlar bu işin regionlarda, kənd məntəqələrində daha optimal, sürətli və yüksək səviyyədə aparılmasına, nəticədə ərazi bölgələrində də əhaliyə yüksəksəviyyəli xidmət göstərilməsinə dəstək göstərəcək. Bu işin təşkilatçılarına təşəkkür edir və ümid edirik ki, bu əməkdaşlıq uzun müddət davam edəcək".

"Peyvəndlərin çatdırılması sağlam və təhlükəsiz şəkildə olacaq və əhalinin sağlamlığı daha etibarlı şəkildə qorunacaq. Bu sahədə bir sıra təlimlər də keçiriləcək. Avropa İttifaqı ilə çox səmərəli əməkdaşlıq edirik və bu əməkdaşlıqdan çox məmnunuq, qarşıdakı aylarda avadanlıqların verilməsi yenə də davam edəcək", - deyə ÜST-ün nümayəndəsi Hande Harmancı bildirib.

Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko Ümumdünya Sağlamlıq Gününü Azərbaycanda keçirdiyinin xüsusi əhəmiyyət daşıdığını qeyd edib: "Bu, çox simvolik bir tarixdir və Avropa İttifaqı ilə Azərbaycanın tərəfdaşlığının inkişafı bizim üçün böyük əhəmiyyət daşıyır. Təqdim olunan avadanlıqlar prosesə nəzarət mexanizminin rəqəmsallaşmasına və onun daha da təkmilləşməsinə xidmət edir".

Azərbaycanda COVID-19 pandemiyasına qarşı mübarizə və rutin immunlaşdırma proqramlarının gücləndirilməsi məqsədilə ÜST-ün Azərbaycandakı nümayəndəliyi 2021-ci ilin iyun ayından etibarən Avropa İttifaqının maliyyə dəstəyi ilə üçillik "COVID-19 əleyhinə vaksinasiyaya dəstək" layihəsini həyata keçirməyə başlayıb. Bu layihə Avropa İttifaqı və Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycana davamlı dəstəyinin tərkib hissəsidir.



# AĞDABAN – intiqamı alınan faciə

Ötən əsrin 80-ci illərindən başlayaraq Ermənistan silahlı birləşmələrinin ərazi iddiası ilə törətdikləri qətliamlar, terror aktları, dinc müsəlman əhalisinə qarşı hücumlar Qarabağda, eləcə də respublikamızın Ermənistanla digər sərhəd bölgələrində kütləvi qırğınlarla, kəndlərin, qəsəbələrin tamamilə yandırılması, ictimai və mülki binaların yerləyeksan edilməsi, ağlagəlməz faciə, soyqırımı və dədə-baba torpaqlarımızın işğalı ilə nəticələndi.

Belə faciələrdən biri də 30 il bundan öncə, 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə ermənilərin Kəlbəcər rayonunda törətdiyi Ağdaban faciəsidir. 130 evdən ibarət Ağdaban kəndi bir gecənin içində erməni silahlı quldurları tərəfindən tamamilə yandırıldı, dağıdıldı və Yer üzündən silindi.

Qədim yaşayış məskənlərindən olan bu kənd rayon mərkəzindən 56 kilometr şimal-şərqdə, Ağdaban çayının sağ silsiləsində, Ağdaban dağının yamacında, Murovdağ silsiləsinin cənub ətəyində yerləşib. Qəfil hücum zamanı kəndin 779 nəfər dinc sakininə işgəncələr verilib, 67 nəfər qətlə yetirilib, 8 nəfər 90-100 yaşlı qoca, 2 azyaşlı uşaq, 7 qadın diri-diri yandırılıb...

Kəndin işğalı zamanı ermənilər tərəfindən tarixi-memarlıq və mədəniyyət abidələri tamamilə dağıdılıb, qədim ziyarətgahlar, inanc yerləri və məzarlıq məhv edilib. Ermənilərin Azərbaycanın mədəni irsinə qarşı törətdiyi vandalizm siyasətinin davamının daha bir təzahürü kimi şair Ağdabanlı Qurbanın və klassik aşıq şeirinin ustadlarından olan Dədə Şəmşirin əlyazmaları məhv edilib. Bu faciəyə ilk hüquqi-siyasi qiymət verən Ümummilli Lider Heydər Əliyev Ağdabanda baş verənləri bəşəriyyətə qarşı törədilən ən böyük cinayət adlandırıb, bunu bütün insanlıq adına utanc kimi səciyyələndirib.

Xatırladaq ki, hücum zamanı ermənilər təkcə Ağdaban kəndini yox, qonşu Çayqovuşanı da darmadağın ediblər. Hücumdan xəbərsiz olan kənd əhalisi başıaçıq-ayaqyalın, qarla örtülü meşələrə, dağlara qaçmağa məcbur olub. Kəndi müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən əhali tamamilə köməksiz qalıb. Qanlı faciə zamanı 32 nəfər dinc əhali - qoca, qadın, uşaq həlak olub, iki nəfər evdə diri-diri yandırılıb, 7 nəfər girov götürülüb. Kənd bütünlüklə yerləyeksan edilib. Şaxtalı-çovğunlu gecədə faciədən səhər tezdən xəbər tutan yerli batalyonun köməyə gələn 6 döyüşçüsünü hadisə yerinə çatar-çatmaz pusquda duran erməni quldurları güllələyiblər.

Ağdaban faciəsi ermənilərin nəinki təkcə Kəlbəcərə, əslində Azərbaycana qarşı başladığı böyük müharibənin ilkin mesajı idi. Kəndin ermənilərin əlində qalması görünməz fəlakətlərə səbəb olmaqla digər kəndlərin işğalını da asanlaşdırdı. Ağdabanın işğalı Murov yolunun ermənilər tərəfindən tutulması və 52 min nəfərlik rayon əhalisinin tamamilə məhv edilməsi demək idi.

Təəssüf doğuran odur ki, Ağdaban faciəsi beynəlxalq səviyyədə müzakirəyə çıxarılmadı. Bundan yararlanan düşmən mühasirə halqasını daraltdı, kəlbəcərli şəhidlərin sayı da artdı. Dinc və əliyalın insanlar doğma torpaqlarında didərginə, qaçqına, köçkünə və girova çevrildilər.

Ağdaban bir dəfə deyil, iki dəfə erməni-rus muzdluları tərəfindən darmadağın edilib. 8 aprel 1992-ci il və 26 mart 1993-cü il Ağdabanın işğal tarixləri kimi yaddaşlara yazılıb. Kəlbəcərin ilk şəhidliyi məhz bu kənddən başlayıb.

Ermənilər 1990-cı il iyul ayının 11-də Ağdərənin Otaqqaya adlanan ərazisində Tərtər-Kəlbəcər marşrutu ilə hərəkətdə olan 150-yə yaxın maşından ibarət karvanın



qarşısını kəsərək, Dədə Şəmşirin qızı Çimnaz xanımı, Şahlar Şükürovu (Azərbaycanın Milli Qəhrəmanı), Aslan Xıdırovu, ittifaq miqyaslı "İstisu" sanatoriyasına müalicəyə gedən, əksəriyyəti xəstə və qocalardan ibarət olan yüzlərlə dinc sakini terror nəticəsində qətlə yetirib.

Cəzasız qalan erməni vandalları Ağdaban kəndi və onun dinc sakinlərinə ikinci dəfə 1993-cü il martın 26-da faciə yaşadıblar. Müasir silahlarla yaraqlanmış erməni quldurları Ağdərə və Ermənistanın Basarkeçər rayonları istiqamətindən qəfil hücuma keçərək, müdafiə olunmayan kənd əhalisini güllələbaran edib və onları öz dədəbaba yurdlarından ayaqyalın-başıaçıq, bütün əmlakını ataraq, dəniz səviyyəsindən 3.400 metr yüksəklikdə olan Murovdağ aşırımından qaçmağa məcbur ediblər. Nəticədə 52 min insan doğma yurdundan didərgin düşüb. Bundan bir həftə sonra Kəlbəcər bütün istiqamətlərdən mühasirəyə alınaraq martın 31-dən aprelin 2-dək tamamilə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

İşğal nəticəsində 220 nəfər mülki vətəndaş həlak olub, 321 nəfər itkin düşüb, yaxud girov aparılıb. Ən çox itki isə Kəlbəcər şəhərindən 64 km. məsafədə yerləşən Başlıbel kəndinin taleyinə düşüb. 28 nəfər ermənilər tərəfindən bir gecədə qətlə yetirilib, 18 nəfər girov götürülüb və ya əsir aparılıb, 17 nəfər 4 ay mühasirədə qalandan sonra min bir əziyyətlə qaçıb Gəncəyə gələ bilib.

Ermənistan Birinci Qarabağ müharibəsi dövründə beynəlxalq hüquq normalarını və humanitar hüququn tələblərini kobud şəkildə pozaraq müharibə cinayətləri törədib. Müharibə qaydalarına zidd olaraq, mülki əhalini girov götürüb, soydaşlarımıza olmazın işgəncələr verib, onları xüsusi amansızlıqla öldürüblər. O insanların meyitlərini kütləvi məzarlıqlarda basdırıblar.

Həmin dövrdə erməni qatilləri Ballıqaya, Qaradağlı, Ağdaban və Xocalı qətliamlarını da törədiblər. Vətən müharibəsindən sonra isə üzə çıxan, başda Xocavəndin Edilli kəndində aşkarlanan kütləvi məzarlıq olmaqla, Kəlbəcərin Başlıbel kəndində, Ağdam, Füzuli, Xocavənd və Şuşa şəhərinin ətraflarında olan kütləvi məzarlıqlar da bu qətliamların əyani sübutudur.

Erməni cəlladları bu qanlı davranışlarını hərbçilərə qarşı da nümayiş etdiriblər. Vandallar müharibə cinayətləri törədərək şəhid olmuş hərbçilərimizin məzarlarının yeri barədə də heç bir məlumat verməyiblər. Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu barədə beynəlxalq təşkilatlar qarşısında dəfələrlə məsələ qaldırmışlar. Cari il fevralın 4-də Prezident İlham Əliyev fransalı həmkarı Emmanuel Makronun, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə videoformatda müzakirələr zamanı Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyi, kütləvi məzarlıqların yerinin müəyyənləşdirilməsi barədə məsələni bir daha gündəmə gətirib. Dövlətimizin başçısı müzakirələr zamanı Birinci Qarabağ müharibəsində 71-i uşaq, 267-si qadın və 326-sı ahıl olmaqla, ümumilikdə 3890 Azərbaycan vətəndaşının itkin düşməsini xüsusi vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyev aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdə də bu məsələyə xüsusi önəm verib, Birinci Qarabağ müharibəsində itkin düşmüş 3890 nəfər azərbaycanlının taleyinə Ermənistan tərəfindən aydınlıq gətirilməsinin və kütləvi məzarlıqların yerləri barədə məlumat verilməsinin vacibliyini diqqətə çatdırıb.

Ağdabanın işğalını kədər hissi ilə qeyd edən bu kəndin sağ qalan sakinlərinə, ümumən bütün kəlbəcərlilərə təsəlli verən odur ki, ağdabanlıların qisası alındı. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və Milli Ordumuzun şücaəti sayəsində 2020-ci ilin noyabrında işğalçı Ermənistan ordusu üzərində tarixi qələbə qazanıldı. Nəinki Kəlbəcər rayonu, ölkəmizin illərlə əsarətdə saxlanılan digər bölgələri də erməni tapdağından azad edildi. Yazın bu güllü-çiçəkli günlərində Ağdaban faciəsini zəfər sevincinə qatan kəlbəcərlilər özlərində ruh yüksəkliyi hiss edirlər. Onlar qələbənin möhtəşəmliyindən qürur duyaraq tezliklə Ağdabana, Kəlbəcərə, doğma yurdlarına dönmək arzusu ilə yaşayırlar.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Naftalanda Aprel şəhidinin xatirəsi anılmışdır



Naftalanda Aprel döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş kapitan Vaqif Dilqəm oğlu Bayramovun xatirəsi anılmışdır. Tədbir iştirakçıları əvvəlcə ailə üzvləri ilə birgə şəhidin məzarını ziyarət edərək önünə gül dəstələri düzmüş, ruhuna dualar oxumuşlar.

Çıxış edənlər Ali Baş Komandanın rəhbərliyi ilə Aprel döyüşlərinin Azərbaycan xalqının mübarizliyinin, rəşadətli ordumuzun gücünün-qüdrətinin təntənəsi və Vətən müharibəsində zəfərə gedən yolun başlanğıcı olduğunu qeyd etmiş, ölkəmizin hər yerində olduğu kimi, Naftalanda da şəhidlərin xatirəsinin daim əziz tutulduğunu diqqətə çatdırmışlar.

Sonra rəssam Elxan Əliyev müəllifi olduğu və Xocavəndin Hadrut qəsəbəsində ucaldılmış "Dəmir yumruq" heykəlinin kiçik formasını şəhidin həyat yoldaşı Nuranə Bayramovaya təqdim etmişdir.

Tədbir Vaqif Bayramovun təhsil aldığı İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbdə davam etdirilmişdir. Burada torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra şəhidlərin adını daşıyan siniflərə baxış keçirilmişdir.

Şəhid ailələrinin nümayəndələri, qazilər çıxış edərək ölkəmizdə şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğıkeşlikdən söz açaraq minnətdarlıqlarını bildirmişlər. Sonda məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş olunmuşdur.

# Vətən müharibəsi şəhidi Ruslan İsmayılovun doğum günü qeyd edilib

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Göygöl rayon sakini İsmayılov Ruslan Eyvaz oğlunun doğum günü Şəhidlər xiyabanındakı məzarı önündə qeyd edilmişdir.




Çıxış edənlər 36 yaşı tamam olan şəhid Ruslan İsmayılovun 44 günlük Vətən müharibəsi başlayan gündən hərbi döyüşlərdə iştirak etdiyini və Kəlbəcər istiqamətində gedən döyüşlərdə şəhid olduğunu bildirmiş, Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildiyini diqqətə çatdırmışlar. Şəhidin keçdiyi qısa və mənalı həyat yolundan söz açan natiqlər vətənimizin bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin daim uca tutulduğunu, onların uyuduqları məzarların ziyarət məkanına çevrildiyini qeyd etmişlər. Həmçinin diqqətə çatdırmışlar ki, bu gün dövlət siyasətinin əsas istiqamətlərindən biri müharibə veteranlarının, əlillərinin, eləcə də şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunmasından ibarətdir. Bu istiqamətdə Göygöl rayonunda da çoxsaylı tədbirlər həyata keçirilir.

Şəhidin təhsil aldığı məktəbin şagirdləri Vətənə, şəhidlərə həsr edilmiş şeirlər söylədikdən sonra tədbir iştirakçıları rayonun Çaykənd kəndindəki Şəhidlər kompleksini və şəhidin yaşadığı evdə yaradılmış guşəni ziyarət etmişlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Dəyişən tarix, dəyişməyən qəddarlıq

## Bakı və Xocalı soyqırımları

Azərbaycanlılar ayrı-ayrı dönəmlərdə dəfələrlə soyqırımına məruz qalıblar. Tarix, məkan fərqli olsa da, məkrli planın müəllifləri də, icraçıları da dəyişməyib.

Və hər dəfə ermənilərin qəddarlığı, təcavüzkarlığı bütün dünyanı heyrətə salıb. Bu dəhşətli faciələri törədənlərin, azərbaycanlıları yalnız milli mənsubiyyətinə görə soyqırımına məruz qoyanların niyyətləri, daha doğrusu, irəli sürdükləri səbəb isə gülüş doğurur. Heç zaman mövcud olmamış və olmayacağı da gün kimi bilinən "böyük Ermənistan" xülyasına ağlı başında olan kimsə inanmaz. Bu səbəbdən də bu yalana ermənilərin özlərindən savayı heç kim inanmayıb. Ancaq hər zaman işğalçı ermənilərin bu sərsəm xəyallarının qəhrini, bəlasını çəkən azərbaycanlılar olub.

### Azərbaycanlılara qarşı törədilmiş 1918-ci il Mart soyqırımı şahid ifadələrində...

XX əsrin ikinci onilliyinin sonları... İctimai-siyasi vəziyyətin yenidən kəskinləşdiyi illər... Birinci Dünya müharibəsinin, ardınca da Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən sonra yaranmış qarışıqlıqdan istifadə etmək, "böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün daşnaklar hərəkətə keçmişdilər. Ən qəddar, qaniçən erməniləri öz ətrafında birləşdirmiş "Daşnaksütyun" partiyası və Erməni Milli Şurası Bakıda soyqırımı planını 1917-ci ildə hazırlamışdılar. Əvvəlcə erməni daşnakları hiyləyə əl atdılar. Müsəlman əhalisini dəfələrlə bolşeviklərə qarşı silahlı çıxışa təhrik etməyə çalışdılar. Məqsədləri soydaşlarımızı bolşeviklərin əli ilə məhv etmək idi.

Bakıdan başlayacaq və Azərbaycanın bir çox bölgəsində davam etdiriləcək soyqırımının təşkilatçısı və rəhbəri Bakı Xalq Sovetinin sədri Stepan Şaumyan idi. O, Birinci Dünya müharibəsindən geri dönən və dövrünün ən yaxşı silahları ilə təchiz olunmuş başıpozuq hərbi birləşmələri Bakıya topladı. Stepan Şaumyan bunu etiraf etmişdi: "Bizim 6 minə yaxın silahlı dəstəmiz vardı. Daşnaksütyunların da bizim tabeçiliyimizə verilmiş 3-4 minə yaxın milli ordusu vardı. Döyüş soyqırımı formasını almışdı, ancaq bundan qaçmaq mümkün deyildi. Biz buna bilərəkdən getdik. Bakını ələ almasaydıq, o, Azərbaycanın paytaxtı elan ediləcəkdi".

Bütün Bakı quberniyasını azərbaycanlılarsız qoymaq niyyətilə daşnak-bolşevik hərbi birləşmələrinin əsgərləri 1918-ci il martın 31-də sübhdən şəhərin müsəlmanlar yaşayan hissəsinə hücuma keçdilər. Həmin gün azərbaycanlılara qarşı genişmiqyaslı soyqırımına başladılar. Ovaxtadək sığındıqları şəhərin yerli əhalisi ilə olduqca mehriban davranan, özlərini dost kimi göstərən ermənilər də daşnak-bolşevik hərbi birləşmələrindən geri qalmırdılar. Hətta Bakıda yaşamış və bu şəhərdə özlərinə qarşı yalnız xoş münasibət görmüş erməni ziyalıları da soyqırımı törədənlərin yanında idilər.

1918-ci ilin martında minlərlə dinc azərbaycanlı işgəncələrlə qətlə yetirildi. Ermənilər heç nədən çəkinmirdilər. Onlar evlərə od vurur, insanları diri-diri yandırırdılar. Qədim, milli memarlıq nümunələrini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdır, gözəl Bakını xarabalığa çevirirdilər.

Həmin ilin iyulunda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə yaradılmış Fövqəladə Təhqiqat Komissiyası tərəfindən dindirilmiş şahidlərdən biri - Bakı şəhərinin sakini A.N.Kvasnikin ifadəsində bildirirdi: "Müsəlman əhalisinin əvvəlcə Bakı şəhərində, sonra isə onun ətraflarında cismən məhv edilməsi, onların əmlakının və bütün var-dövlətlərinin qarət olunması və siyasi üstünlüyün ermənilərin əlinə keçməsi ermənilərin müsəlmanlara qarşı təşkil etdikləri qanlı qəsd idi".

Bakının azərbaycanlı əhalisini qırmaq üçün azğınlaşmış və vəhşiləşmiş erməni quldurlar ən amansız üsullara əl atırdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge komissiyanın sədrinə yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum edirdilər... ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram və süngülərlə deşik-deşik edir, uşaqları yanan evin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm etmir, hamısını öldürürdülər".

Təhqiqat Komissiyasının sənədlərində 1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 12 min nəfərədək türk-müsəlmanın qətlə yetirildiyi qeyd olunub. Şahidlərin ifadələrinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar. Bununla da cinayətin izini itirməyə çalışırdılar.

### Erməni xisləti

XX əsrin axırları... Yetmiş illik sovet imperiyasının çökməkdə olduğu dövr... Sovet İttifaqına daxil olan bütün respublikalarda ictimai-siyasi vəziyyət kəskinləşirdi. Erməni qəsbkarları bu dəfə də fürsətdən istifadə etmək, Azərbaycan torpaqlarını ələ keçirmək, azərbaycanlıları soyqırımına məruz qoymaq məqsədilə məkrli planlarını həyata keçirməyə başladılar. Yetərincə tüfəngi belə olmayan igid Azərbaycan övladları SSRİ rəhbərliyi tərəfindən o illərin ən son silahları ilə silahlandırılan, azğın erməni daşnaklarına qarşı döyüşdə misilsiz qəhrəmanlıq göstərirdilər. Ancaq düşmən bu dəfə də havadarları hesabına istədiklərini edirdi.

1990-cı illərdə erməni silahlıları Azərbaycan torpaqlarının 20 faizini işğala məruz qoydular. Həmin ərazilərdəki bütün tikililəri uçurub dağıtdılar, milli memarlıq abidələrimizi məhv etdilər. Yerli əhalinin ermənilərin zülmlərindən, işgəncələrdən canlarını qurtarmaq üçün qaçmaqdan başqa çarəsi qalmadı. Qəddar ermənilər azərbaycanlılara qarşı amansız oldular. Günahsız dinc insanları dəhşətli işgəncələrlə ya qətlə yetirdilər, ya da şikəst etdilər.

1918-ci ildə olduğu kimi, 1990-cı illərdə də erməni daşnakları Azərbaycanın bir çox yaşayış məntəqəsinə hücum etdilər, kütləvi qırğınlar törətdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını mühasirəyə aldılar. Onlar ən müasir silahlarla hücuma keçdilər. Xocalının özünümüdafiə qüvvələri vuruşaraq düşmənə çox ciddi müqavimət göstərdilər. Amma qüvvələr qeyri-bərabər idi. Həmin gecə Xocalı adlı bir şəhər işğalçılar tərəfindən yerləyeksan olundu. Çoxsaylı ağır texnika ilə Xocalı şəhərini tamamilə dağıtdılar, yandırdılar. Mülki əhaliyə və özünümüdafiə dəstəsinə qarşı misli görünməmiş qəddarlıqlar törətdilər. Kimsəyə aman vermədilər. Qoca, cavan, uşaq, qadın, xəstə demədən soydaşlarımızı işgəncələrə məruz qoydular. Xocalıda şəhid verməyən ailə qalmadı. Qaçıb canını qurtarmağa çalışanların çoxu ya düşmən gülləsinə tuş gəldi, ya da əsir götürüldü.

1992-ci ilin şaxtalı, soyuq fevral gecəsində baş verənlər azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı idi. Rəsmi rəqəmlərə görə, Xocalı faciəsində 613 nəfər qətlə yetirildi. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70 nəfəri isə qoca idi. Bunların içərisində 8 ailə tamamilə məhv edildi, 27 ailənin yalnız 1 üzvü qaldı, 25 uşaq hər iki, 130 uşaq valideynlərindən birini, 230 ailə öz başçısını itirdi, 487 insan şikəst oldu (onlardan 76 nəfər həddi-buluğa çatmamışdı), 1275 insan əsir götürüldü, 1165 insan girovluqdan azad edildi, 197 nəfərin taleyi hələ də məlum deyil. 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə dövlətin və əhalinin əmlakına 5 milyard rubl dəyərində ziyan vuruldu.

### Xocalı soyqırımı şahidlərin ifadələrində...

O vahiməli gündə baş verənlər bütün dünyanı dəhşətə gətirdi. Ermənilər qətlə yetirdikləri azərbaycanlı uşaqların sinəsini yarıb ürəyini parçalamışdılar. Əksər meyitləri tanınmaz hala salmış, tikə-tikə doğramış, gözlərini çıxarmış, başlarını kəsmiş, dərisini soymuşdular.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına verdiyi ifadədə Xocalı soyqırımı şahidlərindən biri - Camal Əbdülhüseyn oğlu Qaraqaya deyilən yerin yaxınlığındakı fermanın 2 kilometrliyində eybəcər hala salınmış xeyli azərbaycanlı meyiti gördüyünü deyib: "Qətlə yetirilmiş uşaqların sinəsini yarıb ürəklərini parçalamış, əksər meyitləri isə tikə-tikə doğramışdılar".

Şahin Zülfüqar oğlu Heydərov Naxçıvanik kəndi (Xocalı) yaxınlığında 80-ə yaxın meyitin olduğunu söyləyib. Meyitlər qorxulu vəziyyətə salınmış, başları kəsilmişdi. Qətlə yetirilənlər arasında milis mayoru Əlif Hacıyev, yaxın qohumları Səlimov Fəxrəddin, Səlimov Mikayıl da var idi.

Cəlil Hümbətəli oğlu Hümbətovun gözü qarşısında ermənilər həyat yoldaşı Firuzəni, oğlu Muğanı, qızı Simuzəri və gəlini Südabəni güllələyiblər. Kətik meşəsinə girəndə ermənilərin mühasirəsinə düşən Kübra Adil qızı Paşayeva gizləndiyi kolluqdan həyat yoldaşı Şuranın, oğlu Elşadın güllələnməsinin şahidi olub. Xocalının işğalı zamanı erməni silahlıları Xəzəngül Təvəkkül qızı Əmirovanın bütün ailə üzvlərini girov götürüb. Onun anası Rayanı, 7 yaşlı bacısı Yeganəni və xalası Göycəni güllələyiblər, atası Təvəkkülün üzərinə isə benzin tökərək yandırıblar. Başqa bir xocalılı - Zoya Əli qızı Əliyeva 150 nəfərə qədər adamla 3 gün meşədə qalıb. Meşədə Zoyanın yanında Dünya Əhmədova və onun bacısı Gülxar donaraq ölüb. Xocalı sakini Kübra Əliş qızı Mustafayeva ifadəsində bildirib: "Ermənilər bizi girov götürən kimi yanımdakı altı nəfəri yerindəcə güllələmişdilər". Xocalı işğal olunan gün on iki nəfərlə birlikdə girov götürülən Səidə Qurban qızı Kərimova öz ifadəsində bildirib: "Ermənilər qızım Nəzakəti, Tapdığı, Səadəti, İradəni işgəncə ilə öldürmüşlər". Xocalılı Əli Ağami oğlu Nəcəfovun ifadəsindən: "Ermənilər qaçan adamları mühasirəyə alaraq 30-40 nəfəri yerindəcə güllələmişlər".

### Ədalətin zəfəri...

Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları yerinə yetirmədi. Nəhayət, 2020-ci ildə 44 günlük Vətən müharibəsində müzəffər Azərbaycan Ordusu 1990-cı illərdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi və otuz ilə yaxın işğalda saxladıqları ərazilərimizi azad etdi.

Böyük zəfərimizin sevinci və qüruru misilsizdir. Amma bu da həqiqətdir ki, dərin yaralar heç zaman tamamilə sağalmır. İzləri qalır, ağrıları unudulmur. Təcavüzkar ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımların da mənəvi yaraları sağalmayacaq, ağrıları yaddaşlardan silinməyəcək. İşğalçı ermənilər xalqımıza qarşı həyata keçirdikləri soyqırımlara, terror əməllərinə, hərbi cinayətlərə görə beynəlxalq səviyyədə cavab verməlidirlər.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# İndi fransız gənclərini seçki maraqlandırmır

**Dünya gündəmi**

## Bu ölkənin avanqard qüvvəsi siyasətçilərin vədlərinə inanmır




Fransada seçki hüququ olan vətəndaşların səsvermədə fəallıq göstərib-göstərməməsi prezident seçkisinin əsas məsələlərindən biridir. Sorğular göstərir ki, xüsusilə gənclər arasında seçkilərə maraq durmadan azalır. Amma doğrudanmı, seçki onları maraqlandırmır?

Belə ki, səsvermədən bir neçə gün əvvəl Parisdə gənclər namizədlərin görüşlərinə qatılmaqdansa, iqlim dəyişikliyinə qarşı mübarizə üçün yürüş keçirməyə daha çox üstünlük veriblər.

Yürüşdə iştirak edən gənc qızlardan biri deyib: “Biz bu gün buradayıq, çünki siyasətçilərə inanmırıq. Təəssüf ki, onların vədlərinə inanmaq çətindir, onlar bizim gözləntilərimizə uyğun deyil”.

“Mən sözlərə inanmıram, mən hərəkətlərə inanıram. Onlar bizə beş il ərzində nəsə vəd edirlər və sözün düzü, biz heç nəyi görmürük”, - deyə manifestasiyanın digər iştirakçısı öz fikrini bölüşüb.

Daha bir yürüşçünün fikrincə, bu seçkilər zamanı ekologiya haqqında bir söz də yoxdur, onun haqqında çox az danışırlar, halbuki təcili tədbirlər görülməlidir, indi hərəkət etmək lazımdır.

Ekologiya ilə yanaşı, mən qeyri-bərabərliklə mübarizə ilə yanaşı, istər gender, istərsə də irqi azlıqlar olsun - dəstəklənməsini vacib sayıram”, - deyə yürüşün qadın iştirakçısı bildirib.

Doğrudanmı, siyasətçilər və gənclər bir-birini daha başa düşmürlər?

Fransız gəncləri haqqında tədqiqatın həmmüəllifi, sosioloq və tarixçi Mark Lazar bu qənaətə gəlib: “Biz gənclərin bir sıra problemlərin çox əhəmiyyətli olduğunu düşündüklərini aydın şəkildə görürük. Birincisi, ətraf mühitlə bağlıdır. Onların 90 faizi hesab edir ki, bu, çox əhəmiyyətlidir. Gənclər dünyada aclıq ilə bağlı məsələlərə görə çox narahatdırlar. Qadınlara qarşı zorakılıq, cinsi zorakılıq... Bunlar gəncləri həqiqətən narahat edən mövzulardır, amma onlar siyasi təklifdə, siyasi partiyalarda bu suallara cavab tapa bilmirlər. Lakin ən təəccüblüsü odur ki, gənclərin 90 faizi ətraf mühit məsələlərindən narahat olduğu halda, yalnız 11 faizi “yaşıllar”ın onları maraqlandırdığını bildirir. Beləliklə, əhəmiyyətli bir boşluq var”.

Jan Jores Fondunun başqa bir araşdırmasına görə, yaşı 18-dən 24-ə qədər olan seçicilərin təxminən yarısı səs verəcəklərinə əmindir. 70-dən çox yaşı olanlar arasında isə səsvermədə iştirak etmək istəyənlər 80 faiz təşkil edəcəkdir.

Professor Mark Lazar isə deyir: “Əgər biz, doğrudan da. səsvermədən ciddi çəkinməyə doğru irəliləyiriksə, onda prezident seçkilərində qalib gələcək nəsil ilə COVID epidemiyasından əziyyət çəkən bugünkü cəmiyyətdə inkişaf edən gənclər arasında əhəmiyyətli fərq yarana bilər. Onlar COVID-dən əziyyət çəkiblər, lakin bu cəmiyyətin siyasi cəhətdən necə təşkil edildiyini qəbul etmirlər. Bu, növbəti beş il ərzində güclü gərginliyin əlaməti ola bilər”.

Ənənəvi olaraq, fransızlar prezident seçkilərində daha fəal şəkildə səs verirlər. 2017-ci ildə əvvəlki seçkilərlə müqayisədə seçici fəallığı bir qədər azalsa da, ilk turda 78 faiz təşkil edib.

“Euronews” telekanalı xəbər verir ki, prezident seçkisinin ilk turunda bitərəflik rekordu 2002-ci ilə təsadüf edir. Fransızlar xatırlayırlar ki, o zaman ilk dəfə ifrat sağçıların namizədi ikinci tura keçmişdi. Seçkiyə bir neçə gün qalmış əksər analitiklər ovaxtkı rekordun bu il yenilənə biləcəyi qənaətinə gəliblər.

***Rizvan CƏFƏROV,***
***“Azərbaycan”***

# Ermənistan hərbçisi güllə satır

## Maddi durumu getdikcə ağırlaşan əsgərlər ordudan oğurluq etməyə başlayıblar

Baş nazir Nikol Paşinyan bütün çıxışlarında İkinci Qarabağ müharibəsində Ermənistanın böyük itkilər verməsinin əsas səbəbkarları kimi erməni generalitetini, xüsusən də həmin vaxt Silahlı Qüvvələrin Baş Qərargah rəisi olan Onik Qasparyanı günahlandırır. İrəvan parlamentində 44 günlük müharibənin nəticələrini araşdırmaq üçün yaradılan istintaq komissiyasından sonra yüksəkrütbəli hərbçilər barədə cinayət işi açıldı, bir çoxları həbs edildi.



Bütün bunların fonunda erməni generallar artıq hakimiyyətə o qədər də etibar etmirlər. Məğlub ordunun yüksəkrütbəli zabitlərinin çoxu yaxın zamanlarda vəziyyətin dəyişəcəyindən və məsuliyyətə cəlb olunacaqlarından narahatdırlar. Hərbi ekspert Manvel Şahnazaryan hesab edir ki, belə bir orduya malik olan dövlət heç vaxt uğur əldə edə bilməz. Ermənistan ordusunda adi hala çevrilən fərarilik, ölüm, korrupsiya, intihar faktları onun nüfuzuna birbaşa təsir göstərir. Üstəlik hərbçilər arasında cinayət hallarının sayı artıb.

Bu arada Ermənistandakı hərbi hissələrdən birinin kommunal xidmətinin rəisi Kirak Sarkisyan satış məqsədilə güllə oğurlamaqda ittiham olunur. O, hərbi hissənin çavuşu Levon Armenyanı dəfələrlə oğurluğa məcbur edib, sonradan gülləleri Stepanavan şəhər sakinlərindən birinə satıb. Məlum olub ki, belə faktlar Ermənistan ordusunda adi hala çevrilib. Təhlükəsizlik sisteminin ekspertləri hesab edirlər ki, Paşinyan ordudakı problemləri kökündən həll edə bilməz. Bu gün hamı bilir ki, ordu sıralarında yüzlərlə yararsız, orduya ləkə gətirən yüksəkrütbəli hərbçi var. Onların hamısı ordudan azad edilməlidir.

Ermənistanın “Past” qəzeti yazır ki, 3 ildən çoxdur ki, Paşinyan hakimiyyəti mümkün və qeyri-mümkün üsullarla orduya zərbələr endirib, indi də o prosesi davam etdirir. Qeyd olunur ki, sərhədlərdə mütəmadi olaraq gərginlik hökm sürür, irimiqyaslı hərbi əməliyyatlar istisna edilmir. Ancaq Ermənistanda baş qərargah rəisi yoxdur: “Hakimiyyət nümayəndələri sadəcə olaraq bildirirlər ki, baş qərargah rəisi yoxdur, əvəzində səlahiyyətlərini icra edən var. Necə deyərlər, bu “komandaya” başqa nəsə başa salmaq, başa düşəcəklərinə ümid etmək onsuz da mənasızdır. Nə üçün onlar tam məsuliyyətin, tam koordinasiyanın və sairənin nə olduğunu başa düşmürlər?”



Deyilir ki, Paşinyan sanki silahlı qüvvələr üzərində eksperiment aparır, baş qərargahın rəislərini tez-tez dəyişir, hərbçiləri hədəfə alır. İndi isə ümumi üsullarla ordunu zəiflədir: “Paşinyan başqasına güvənir, yoxsa müvafiq kadr qalmayıb? Bu qədər kadr qırğınları olub. Yoxsa başqa, daha dərin səbəblər var? Bəlkə də hamısı birlikdə var. Bütün bunlarla yanaşı, Qarabağdakı mövcud vəziyyət qoşunların ikitərəfli çıxarılması ideyasının nə qədər təhlükəli və lazımsız olduğunu göstərir. Görünür, bu, Azərbaycanın yenidən irəliləməsinə zəmin yaradır, çünki Ermənistan tərəfi qoşunlarını geri çəkəndə Azərbaycan Silahlı Qüvvələri, sadəcə olaraq, irəliləyir, sonra isə getməkdən imtina edirlər”.

Müəllif vurğulayır ki, Ermənistan hakimiyyəti texnoloji orduya ehtiyac olduğunu dərk etməyib. İlk növbədə, konkret problemlərin həlli üçün istifadə edilən ən müasir, yüksək dəqiqlikli silahlar olmalıdır. Təsadüfi deyil ki, müharibə başa çatdıqdan sonra da Azərbaycan ən müasir silahlara sahib olmaqda davam edir və eyni zamanda yeni hərbi hissələr açır, o cümlədən “Komando” qoşunları formalaşdırır: “Bəs bizim hakimiyyət bu müddət ərzində nə edib, nə qədər yeni hərbi hissələr açıb və ya müasir silahlarla hansı nailiyyətlərə imza atıb? Cavab sadədir: heç nə etməyib. Növbəti sual budur ki, Ermənistan rəhbərliyi 44 günlük müharibədə niyə uduzduğumuzu öyrənməyib və ya təhlil etməyib? “Nikol Paşinyan komissiyası” adlandırılan parlament istintaq komissiyası, sadəcə, şoudur və reallığı üzə çıxarmaq baxımından heç nə verməyəcək”.

Bildirilir ki, sosial şəbəkələrdə vaxt keçirməkdən başqa heç nə bilməyən nə qədər qeyri-peşəkar kadrlar var ki, Paşinyan bunlarla dövlət sistemini, o cümlədən təhlükəsizlik sahəsini doldurub. Eyni zamanda, Nikol yalnız daxili məsələlərlə məşğuldur. Yerli özünüidarələri ələ keçirmək üçün hər şeyi edir, görmək istəmədiyi adamları hüquq-mühafizə orqanları vasitəsilə mühakimə edir.

Göründüyü kimi, bu ölkənin ordusunda baş verən proseslər daxili siyasi proseslərin daha da gərginləşdiyini və İrəvanın sürətlə məhvinə doğru yaxınlaşdığını növbəti dəfə təsdiqləyir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## B İ L D İ R İ Ş

05 mart 2022-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalında və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində verilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofis binası üçün iki ədəd 30 kVA gücündə elektrik tənzimləyicilərinin, Biləsuvar şəhərində yerləşən ərazi idarəsi binası üçün bir ədəd 40kVA UPS avadanlığının və Yevlax və Quba şəhərlərində yerləşən ərazi idarələri binalarında istismar olunan UPS avadanlığı akkumulyatorlarının təchizatı və quraşdırılması işlərinin və Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofis və Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binası üçün müxtəlif tipli kondisionerlərin və mərkəzi soyutma-isitmə tipli (VRV və ya VRF) sistemin təchizatı və quraşdırılması işlərinin satın alınması üzrə açıq tenderlər Tender komissiyasının 06 aprel 2022-ci il tarixli qərarına əsasən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

11 mart 2022-ci il tarixdə dövlət satınalmalarının vahid internet portalında və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi internet səhifəsində verilmiş Azərbaycan Respublikasının Mərkəzi Bankında istifadə olunan standart proqram təminatları üzrə lisenziyaların satın alınması üzrə açıq tender Tender komissiyasının 07 aprel 2022-ci il tarixli qərarına əsasən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

# Paytaxtda hava əsasən yağmursuz olacaq

Azərbaycanda aprelin 8-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gün ərzində arabir güclənən cənub-qərb küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 7-9°, gündüz 15-20° isti, Bakıda gecə 7-9°, gündüz 17-19° isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 752 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 20-25° isti, dağlarda gecə 0-5°, gündüz 9-14° isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində havanın yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 18-23° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə havanın yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 9-14° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində şimşək çaxacağı, havanın arabir yağıntılı olacağı gözlənilir. Dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, dağlarda 3°-dək şaxta, gündüz 9-14° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında gün ərzində havanın arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 4-8°, gündüz 17-22° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 15-20° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 10-15° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə yağış yağacağı proqnozlaşdırılır. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 20-25° isti olacağı ehtimalı var.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Səhər dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturu gecə 8-10°, gündüz 18-22° isti, dağlarda gecə 4-6°, gündüz 14-18° isti olacaq.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**

**www.azerbaijan-news.az**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin kollektivi Sumqayıt şəhər Polis İdarəsinin rəisi Fəqan Azadəliyevə anası

**FATİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5634
Sifariş 917
Qiyməti 40 qəpik